# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

11 İYUN 2020-ci il

№ 92 (4223)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# PAŞİNYAN AVRASİYA BİRLİYİNDƏ RUSİYAYA QARŞI PROSESƏ QIRĞIZISTANI DA QOŞMAQ İSTƏYİR - YENİ FİASKO ƏRƏFƏSİ...

■ səh. 10 ■

Koronavirusla mübarizədə Azərbaycan modelinin xarakterik özəllikləri... Əsas istiqamətləri Prezident göstərdi

■ səh. 6 ■

Pandemiya dövründə Azərbaycanı lider kimi tanıdan daha bir amil - ən çox yardım edən ölkə...

■ səh. 5 ■

Nazir Vilayət Eyvazovun intizamsız polisə verdiyi cəzanı hamı anlayışla qarşıladı

■ səh. 4 ■

Azərbaycan düşməni hərb müstəvisində çökdürməyə hazırlaşır, erməni mətbuatı "Paşinyan və uğursuz komandası"nın Ermənistanı fəlakətə sürüklədiyindən yazdı

■ səh. 9 ■

Rusiyadan Ermənistana qarşı daha bir jest - qazdan sonra AES-ə kredit imtinası...

■ səh. 10 ■

Paşinyan müxalifətin total məhvinə başladı, dünya isə hələ susur...

■ səh. 11 ■

Dünya dövlətləri dollar ehtiyatlarını qızılla əvəzləməyə başladı - Azərbaycanda da proses gözlənilən sayılır...

■ səh. 13 ■

Azərbaycanda karantin rejiminin 1 iyuladək uzadılması ciddi əsaslardan irəli gəldi

■ səh. 6 ■




## Prezidentin göstərdiyi üç amil həqiqətən cəmiyyətimizin 95 faizini yoluxmadan qoruya bilər

■ səh. 3 ■



Prezidentin Azərbaycanda koronavirus dövrü üçün daha bir proqnozu doğruldu - 1,7 faiz iqtisadi tənəzzül...

■ səh. 5 ■

Virusla mübarizədə Azərbaycanın müstəsna uğurlarının əsas şərti - bütün xəstələr xüsusi şəraitdə müalicə alır

■ səh. 7 ■



Azərbaycan BMT Baş Məclisinin xüsusi ümumdünya koronavirusla mübarizə konfransına nail ola bilsə...

■ səh. 8 ■

Bütün dünya Azərbaycan və Ermənistanın pandemiya ilə mübarizələrinin fərqinə şahid oldu - Prezidentin uğurlu müqayisəsi...

■ səh. 8 ■



Koronavirusla mübarizədə dünyada yardım almayan yeganə ölkə - Azərbaycan hansı gücün hesabına...

■ səh. 3 ■



Koronavirus məsələsində Azərbaycanın daha bir uğurlu müqayisəsi inkişaf etmiş ölkələrlə aparıldı

■ səh. 4 ■



Paşinyan və ailəsi həqiqətən yoluxmuşdularsa... erməni mediasında ifşaedici suallar...

■ səh. 12 ■



"Məni gənclər həmişə Anarın müdafiəçisi kimi qınayırlar"

■ səh. 15 ■



## Şəmkir sakinləri Prezidentə "...bir ailənin iki həkim üzvü olaraq..." deyə yazdılar...

**Şəmkir şəhərindən Prezident İlham Əliyevə müraciət edən İbrahimov Sabir Şükür oğlu və İbrahimova Rahilə Vəli qızı qeyd edirlər ki, bəşəriyyəti cənginə almış qorxunc pandemiya ilə mübarizədə tibbin ən inkişaf etdiyi ölkələrin aciz qaldığı, bəzi dövlətlərin bu virusa biganə yanaşdığından çətin vəziyyətə düşdüyü halda, ölkə başçısının əsl vətəndaşlıq nümunəsi göstərərək xalqın yanında olması, bütün vətəndaşlar kimi, onları da qürurlandırır.**



"Əhalinin sağlamlığının qorunmasının ön plana çəkilməsi, Sizin uzaqgörən siyasətinizlə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi bu pandemiyadan daha az itkilərlə çıxmağımıza zəmin yaradıb. Sizin ölkəmizi COVID-19 virusundan qorumaq üçün atdığınız hər addımınızı bir ailənin iki həkim üzvü olaraq alqışlayır və xalqımızın sağlamlığı naminə verdiyiniz tapşırıqları səngərdəki bir əsgər kimi hər zaman sevə-sevə yerinə yetirəcəyimizə söz veririk. Siz, həqiqətən, vətəndaşı onun özündən daha çox düşünürsünüz... Şəmkir sakinləri də Sizə - qəlbi daim xalqı ilə döyünən rəhbərə hər zaman dəstək olacaqlar. Biz fəxr edirik, qürur hissi keçiririk ki, Sizin kimi Prezidentimiz var" -deyə Şəmkir sakinləri bildirirlər.

*Baki-xeber.com*

## "Pandemiya dövründə hər bir addımınız nəticə verdi" - Şirvandan Mələk Əkpərzadə Prezidentə yazdı...

**"Dünyanın ən təhlükəli bəlasına çevrilmiş koronavirus pandemiyasına qarşı Sizin rəhbərliyinizlə ölkəmizdə aparılan mübarizənin dövlətimizi və xalqımızı bu dəhşətli xəstəliyin ağır sınağından çıxaracağına uğurla inanırıq.**

Sizin düşünülmüş, uzaqgörən siyasətiniz sayəsində Azərbaycan çox uğur əldə edib və çətinliklərə sinə gərib. Pandemiyanın ilkin mərhələsində verdiyiniz hər bir qərar, həyata keçirdiyiniz bütün tədbirlər qısa bir zamanda öz müsbət nəticəsini göstərdi. Bu gün yoluxma hallarının çox olmasına baxmayaraq, əminik ki, həyata keçirilən tədbirlər nəticəsində bu bəladan tamamilə qurtulmaq mümkün olacaq. Siz ən ağır günlərdə xalqı düşünməklə, onun yanında olmaqla əsl lider kimi öz müqəddəs missiyanızı bir daha yerinə yetirdiniz. Biz Sizə həmişə inanmışıq və indi də inanırıq".

Bu fikirlər Şirvan şəhərindən Prezident İlham Əliyevə məktub yazan Əkpərzadə Mələk Əskər qızına məxsusdur. M.Əkpərzadə ölkəmizin inkişafı, xalqımızın xoşbəxt gələcəyi naminə atdığı hər bir addımda ölkə başçısına uğurlar arzulayır və qeyd edir ki, Prezident İlham Əliyev xalqa arxalandığı kimi, xalqımız da hər zaman Prezidentə arxalanır.

*Baki-xeber.com*

## Dövlət Gömrük Komitəsinin Akademiyası magistratura səviyyəsinə yeni ixtisaslaşma üzrə qəbul elan etdi

**Dövlət Gömrük Komitəsinin Akademiyası 2020/2021-ci tədris ilindən magistratura səviyyəsinə yeni ixtisaslaşma - "Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası" ixtisaslaşması üzrə qəbul elan edir.**

DGK-nın İctimaiyyətlə əlaqələr şöbəsinin xəbərinə görə, bununla da 2020/2021-ci tədris ilində Akademiyada magistratura səviyyəsinə Dünya iqtisadiyyatı istiqaməti üzrə "Gömrük işi" ixtisaslaşmasına, Hüquqşünaslıq istiqaməti üzrə "Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası" ixtisaslaşmasına qəbul aparılır. Xatırladaq ki, 2019/2020-ci tədris ilində Akademiyada ilk dəfə magistraturaya qəbul aparılıb. Həmin tədris ilində magistratura səviyyəsinə qəbul Dünya iqtisadiyyatı istiqaməti üzrə "Gömrük işi" və Hüquqşünaslıq istiqaməti üzrə "Beynəlxalq hüquq" ixtisaslaşmaları üzrə həyata keçirilib.

# Azərbaycan XİN Ermənistanın dünyanın diqqətini öz irqçi cinayətlərindən yayındırmaq cəhdini ifşa etdi

**Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycanı nifrət nümayiş etdirən çıxışları ilə ittiham etməyə cəhd göstərən son açıqlamaları bu ölkənin beynəlxalq qurumların qəbul etdiyi qərarları özbaşına və seçilmiş şəkildə şərh etmək təcrübəsini bir daha üzə çıxarır. Baki-xeber.com xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) bəyanatında deyilir.**




Bəyanatda bildirilir: "Ənənəvi əsassız iddialarını səsləndirməklə, Ermənistan beynəlxalq birliyi yanıltmaq və diqqəti öz irqçi siyasətindən və nifrət zəminində törətdiyi cinayətlərdən - Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonunun qeyri-qanuni hərbi işğalından və təcavüz zamanı yüz minlərlə azərbaycanlının insan hüquqlarının və əsas azadlıqlarının ciddi şəkildə pozulması faktından yayındırmaq məqsədi güdür. Azərbaycana qarşı müharibəni başlatdığına və beynəlxalq səviyyədə tanınmış ərazilərinin beşdə bir hissəsini zəbt etdiyinə görə tam məsuliyyət daşıyan, işğal olunmuş ərazilərdə etnik təmizləmə həyata keçirən, münaqişə zamanı digər ağır cinayətlər törədən, irqçi ideologiyanı müdafiə edən və BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı qətnamələrinə, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarına, habelə digər beynəlxalq təşkilatların qərar və sənədlərinə açıq-aşkar laqeydlik göstərən Ermənistan, özünün davamlı şəkildə pozduğu standartlar və dəyərlərlə başqalarını ittiham edə bilməz.

Ermənistan bütün qeyri-erməniləri, o cümlədən azərbaycanlıları ölkədən qovmaqla monoetnik ölkəyə çevrilmişdir. Ermənistan, etnik cəhətdən homogen ərazilər yaratmaqla bağlı eyni siyasət və təcrübəsini, bütün qeyri-ermənilərin qovulduğu və oyuncaq rejimini yaratdığı Azərbaycanın işğal edilmiş ərazilərinə də tətbiq edib.

Etnik və dini zəmində nifrət, düşmənçilik və dözümsüzlük Ermənistan siyasətinin əsasını təşkil edir və bu ölkə rəhbərliyinin ermənilərlə azərbaycanlılar arasında "etnik uyğunsuzluğa" aşkar inamının sübutudur. Beynəlxalq ictimaiyyət dəfələrlə Ermənistanın bu cür iyrənc fikirləri açıq şəkildə təbliğ etməsinə öz etirazını bildirmiş və Ermənistanda hökm sürən dözümsüzlük ruhu və bu ölkədə həyata keçirilən ayrı-seçkilik siyasəti və təcrübələri ilə bağlı ciddi narahatlığını ifadə etmişdir.

Ermənistan insan hüquqları standartlarına və Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarına münasibətdə riyakarlıq və seçici yanaşmasına son qoymalı və eyni Məhkəmənin "Çıraqov və digərləri Ermənistana qarşı" adlı 16 iyun 2015-ci il tarixli qərarının icrasına başlamalıdır. Məlum olduğu kimi, Avropa Məhkəməsinin Böyük Palatası təqdim olunan sübutları araşdıraraq, Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və digər işğal olunmuş əraziləri üzərində nəzarəti həyata keçirdiyini təsbit etmiş, Ermənistanın azərbaycanlı məcburi köçkünlərin hüquqlarının pozulmasına görə məsuliyyət daşıdığını bildirmiş və onların işğal olunmuş ərazilərdəki evlərinə və doğma yurdlarına qayıtmaq hüquqlarını bir daha təsdiq etmişdir.

Münaqişənin davam etməsinin və bunun nəticəsində bölgədə gərginliyin ara-sıra artmasının başlıca səbəbi Azərbaycan ərazilərinin qanunsuz işğalı və Ermənistanın bu vəziyyəti möhkəmləndirmək cəhdləridir. İlk növbədə Ermənistanın təcavüzünün nəticələri aradan qaldırıldıqdan sonra, yəni BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələbinə uyğun olaraq Ermənistan silahlı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz Azərbaycan ərazilərindən çıxarılması, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün bərpa olunması və yüz minlərlə azərbaycanlı məcburi köçkünlərin insan hüquqları və əsas azadlıqlarının, o cümlədən onların evlərinə və mülklərinə geri qayıtmaq hüququnun təxirə salınmadan təmin edilməsindən sonra sülh, təhlükəsizlik və sabitliyə nail olmaq mümkündür".

# Azərbaycanda daha 339 nəfər koronavirusa yoluxdu, 114 nəfər sağaldı, 4 nəfər vəfat etdi

**Azərbaycanda 339 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 114 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**



Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə, ümumilikdə, 8 530 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 4 720 nəfər müalicə olunaraq sağalıb, 102 nəfər vəfat edib, 3 708 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 356 032 test aparılıb.

# Prezidentin göstərdiyi üç amil həqiqətən cəmiyyətimizin 95 faizini yoluxmadan qoruya bilər

## *Rasif Bağırov: "Biz dünyada nəyin baş verdiyini ciddi şəkildə başa düşməliyik"*

**İyunun 9-da Prezident İlham Əliyevin iştirakı ilə üç modul tipli xəstəxananın açılışı baş tutub. Açılış zamanı Prezident bir sıra məqamlara toxunub. O cümlədən, koronavirusdan qorunmaq üçün əhalinin qoruyucu vasitələrdən istifadə etməsinin vacib olması haqqında da fikir bildirib.**

*"...adi gigiyenik tələblərə və sosial izolyasiya qaydalarına riayət etməklə ona yoluxmamaq və qorunmaq mümkündür"*

Prezident qeyd edib ki, cəmi bu üç amil, - bunu həkimlər, müxtəlif ictimai xadimlər bəlkə də min dəfə deyiblər, - gərək nəzərə alınsın: "Tibbi maska, bir yarım-iki metr məsafə və dezinfeksiya vasitələri. Bu amillər insanları həkimlərin yekdil rəyinə görə, 95 faiz qoruyur. Ona görə vətəndaşlardan artıq dərəcədə xahiş edirəm ki, bu çox sadə qaydalara əməl etsinlər və bilsinlər ki, koronavirus yoxa çıxmayıb".

Koronavirusdan qorunmaq üçün əhalinin mütləq şəkildə tibbi maska taxması, sosial məsafəyə riayət etməsi, eyni zamanda, dezinfeksiya vasitələrindən istifadə etməsi dəfələrlə Prezident İlham Əliyev və həkimlər tərəfindən səsləndirilib.

Bizi izləyən virusdan necə qorunmaq olar? Bu sualın cavabı təkcə Azərbaycanda yox, bütün dünyada eynidir: tibbi maskadan istifadə və sosial məsafə.

Beynəlxalq araşdırmalar "tibbi maskadan istifadə edin, sosial məsafəyə riayət edin" çağırışlarının həyatımız üçün əhəmiyyətini anlamağa imkan verir.

Məşhur "Lancet" tibb jurnalının yeni araşdırmasında koronavirusdan qorunmağın üç yolunun olduğu bildirilir.

Sosial məsafə: Araşdırma nəticəsində müəyyən olunub ki, virusun 1 metr məsafədən ötürülmə risqi 12,8 faiz, 1 metrdən uzaq məsafədən ötürülməsi risqi isə 2,6 faizdir. Ən təsirli məsafə 2 metr və daha çoxdur.

Tibbi maska: Üz maskası və ya respirator olmadan (N95 maskası) ötürülmə risqi 17,4 faizdir. Maskadan istifadə isə bu risqi 3,1 faizə qədər endirir.

Göz nahiyəsinin qorunması: Gözlə ötürülmə risqinin 5,5 faiz olduğu deyilir. Bunun üçün əsasən eynəkdən istifadə tövsiyə olunur.

Lakin tibbi maskadan istifadə və sosial məsafənin saxlanması iki ən vacib amil olaraq qiymətləndirilir.

Həkim-ekspert Rasif Bağırov bildirdi ki, hər bir şəxs sosial məsuliyyətdən irəli gələrək özünü, yaxınlarını və digər cəmiyyət üzvlərini qorumaq üçün mövcud sanitar-gigiyenik qayda və tələblərə ciddi riayət etməli, başqalarını da bu fəaliyyətə dəvət etməli-




dir: "Bu bir həqiqətdir ki, koronavirusun yoluxma sürətinin insanlar arasında yüksək olmasına baxmayaraq, adi gigiyenik tələblərə və sosial izolyasiya qaydalarına riayət etməklə ona yoluxmamaq və qorunmaq mümkündür. Xüsusilə də maskadan istifadə, əllərin mütəmadi yuyulması, dezinfeksiya edilməsi və sosial məsafənin qorunması çox vacibdir. Prezident İlham Əliyev düz buyurur ki, sosial məsafəni saxlamaq, tibbi maska və dezinfeksiya vasitələrindən istifadə etmək koronavirusun yayılmasının qarşısını alır. Ancaq təəssüf ki, bu gün bəzi şəxslər hələ də koronavirus adlı xəstəliyə inanmırlar. Bu səbəbdən də onlar təhlükəsizlik tədbirlərinə əməl etmirlər. Avtobusda insanlar tibbi maska taxmırlar. Çayxanalarda insanlar az qala bir-birinə yapışmış halda otururlar. Onlar dezinfeksiya vasitələrindən istifadə etmirlər. Bunu da hökumət hər bir vətəndaş üçün edə bilməz. Vətəndaş məsuliyyətli olmalıdır. Biz dünyada nəyin baş verdiyini ciddi şəkildə başa düşməliyik. Bu gün dünyada ölkələr gözümüzün qarşısında çökürlər. Axı nə qədər məsuliyyətsiz hərəkətlər davam edə bilər? Kim dövlətin onurğa sütununu təşkil edən ordu, polis, təhlükəsizlik, hüquq-mühafizə orqanlarına qarşı qanunazidd hərəkət edirsə, qanun qarşısında cavab verməlidir".

**Günel CƏLİLOVA**

# Koronavirusla mübarizədə dünyada yardım almayan yeganə ölkə - Azərbaycan hansı gücün hesabına...

## *Dəyanət Osmanlı: "Bütün bu tədbirlərin arxasında, sözsüz ki, dövlətin siyasi-iqtisadi gücü dayanır"*

**"...Bu dövr ərzində bir daha demək istəyirəm ki, Azərbaycan beynəlxalq arenada siyasi cəhətdən özünü güclü dövlət kimi göstərdi, iqtisadi sahədə güclü dövlət kimi göstərdi, sosial sahədə güclü dövlət kimi göstərdi. Göstərdi ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı durur.**



Onu da bildirməliyəm ki, bu dövr ərzində aparıcı beynəlxalq maliyyə qurumlarının hesablamalarına görə, 150-dən çox ölkə beynəlxalq maliyyə qurumlarına yardımla bağlı müraciət edib. Azərbaycanın adı bu siyahıda yoxdur. Biz heç kimdən yardım almırıq, heç kimdən yardım istəmirik, biz kredit istəmirik. Ancaq yüksək texnoloji layihələrin həyata keçirilməsi üçün kredit ala bilərik, bizə məqbul olan şərtlərlə. Ona görə bütün parametrlər üzrə Azərbaycan liderlik göstərib. Bu liderlik artıq regionumuzun çərçivələrindən çoxdan çıxıb".

Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 9-da üç modul tipli xəstəxananın açılışı zamanı deyib. Azərbaycan buna hansı gücün hesabına nail olub?

Azərbaycanda Atatürk Mərkəzinin baş redaktoru, "Türk Dünyası İnfo" İB-nin sədri Dəyanət Osmanlı "Bakı-Xəbər"ə bildirdi ki, neinki pandemiya dövrndə, eləcə də digər məsələlərdə Azərbaycan dövləti əsasən ehtiyacı olan ölkələrə yardım edən ölkə kimi tanınıb, nüfuz qazanıb. "Bütün dünya koronavirusla mübarizəyə qoşulub, insanların da tam olaraq bu ovqata köklənməsi xəstəliyin qarşısının alınmasında effekti artırmaq deməkdir. Bir çox ölkə, o cümlədən, Cənubi Qafqaz regionunda pandemiyaya qarşı tədbirlərin görülməsi maddi-tibbi və iqtisadi yardımlarla müşayiət olunur. Buna baxmayaraq, yenə də xəstəliyin artım tempi göstərir ki, buna arxalanmaq düzgün deyil. Bəzi inkişaf etmiş dövlətlər var ki, onlar sözügedən mübarizədə xüsusi fəallıq göstərir, hətta başqalarına da kömək əli uzadırlar. Azərbaycan da bu sırada özünə yer alıb.

Bu mənada, Azərbaycan koronavirusun ilk dövründən başlayaraq müstəqil şəkildə mübarizə planları hazırlayıb həyata keçirməyə başladı. Bütün bu tədbirlərin arxasında, sözsüz ki, dövlətin siyasi-iqtisadi gücü dayanır. Ölkəmizin artan dinamika ilə seçiyyələnən inkişafı koronavirusla mübarizə məsələlərinin də heç bir asılılıq olmadan həllini təmin edir. Həmçinin, ictimai və media sektorunda təbliğat məsələləri də cəmiyyətin qaydalara adekvat reaksiyasında az rol oynamır. Ona görə də biz xəstəliyin yayılmamasında dövlətimizin tətbiq etdiyi karantin rejimi və maksimum qorunma tədbirlərinin nəticəsinin şahidi oluruq. Bütün cəmiyyət üzvləri bir az da qaydalara diqqətlə yanaşsalar, daha az itkilə bu gərginlikdən çıxmaq mümkündür. Yəni, bildiyimiz kimi, dövlət hər şeyi düşünüb və sadəcə, cəmiyyət karantin tədbirlərinə uyğun yaşamağı birmənalı qəbul etməlidir. Azərbaycan heç bir yerdən kömək almadan, həm də çox genişmiqyaslı mübarizə üsulu seçməklə digərləri üçün nümunədir".

*"Azərbaycan heç bir yerdən kömək almadan, həm də çox genişmiqyaslı mübarizə üsulu seçməklə digərləri üçün nümunədir"*

D.Osmanlının sözlərinə görə, ilk dönəmlərdə maska və digər tibbi materiallar çatışmazlığı olsa da, qısa müddətdə aradan qaldırıldı. Onun bildirdiyinə görə, bununla yanaşı, Prezident İlham Əliyev bu günlərdə modul tipli xəstəxanaların açılışını etdi: **"Bu kimi tədbirlər göstərir ki, dövlət öz vətəndaşlarının həyatının qorunması, sağlamlığının təmin olunması naminə hər cür vacib təşəbbüsləri, layihələri gerçəkləşdirir" - deyə D.Osmanlı vurğuladı.**

**İradə SARIYEVA**

# Nazir Vilayət Eyvazovun intizamsız polisə verdiyi cəzanı hamı anlayışla qarşıladı

**Son günlər ölkə gündəmində əsas müzakirə olunan mövzu polis-vətəndaş münasibətləridir. Məlum olduğu kimi, ötən həftənin son iki günü üçün elan edilən sərt karantin rejimini pozduğuna görə Yasamal ərazisində polis vətəndaşı saxlayır, bölməyə aparmaq istəyir.**



Bu zaman yaxınlıqdakı binadan bir vətəndaş polisə zibil atır, müxtəlif söyüşlər söyərək təhqir edir. İyunun 7-də Yasamal rayonunda gücləndirilmiş karantin rejiminə nəzarəti həyata keçirən polis əməkdaşlarının üzərlərinə məişət əşyaları atanlar saxlanarkən çəkilmiş videogörüntülər araşdırılıb və bu zaman əməkdaşlardan birinin bir qadınla yüksək səs tonunda danışaraq onun həyat yoldaşının ünvanına yersiz ifadələr işlətməsi müəyyən edilib, bu da bağışlanmaz hal kimi qiymətləndirilib.

DİN-in Mətbuat xidmətinin yaydığı məlumatda qeyd olunur ki, həmin qadın Bakı Şəhər Baş Polis İdarəsinə dəvət edilib və ondan üzr istənilib: "Bundan sonra DİN rəhbərliyi tərəfindən həmin əməkdaşın tutduğu vəzifədən azad edilməsi və barəsində xidməti yoxlama aparılması haqqında qərar qəbul edilib".

Qadını təhqir edən polisin işdən çıxarılması ölkə ictimaiyyəti tərəfindən müsbət qarşılanır.

## *Aytəkin Kamranqızı: "Kimliyindən asılı olmayaraq, qanunu pozan hər kəs qanun qarşısında cavab verməlidir"*

Sosioloq Aytəkin Kamranqızı bildirdi ki, vətəndaşlar bir-birini sevməli, bir-birinə hörmət etməlidirlər. Hamı bilməlidir ki, bu torpağın övladıdır, torpağa, ölkəyə, adət-ənənəmizə hörmətlə yanaşılmalıdır. Bu, məsələnin mənəvi tərəfidir. Yəni bir vətəndaş general ola bilər, başqa bir vətəndaş sıravi ola bilər. Hər kəs öz səlahiyyəti çərçivəsində, qarşılıqlı hörmət əsasında hərəkət etməlidir: "Azərbaycan polisi son illərdə əməliyyatları, asayişi təmin etməsi, nizam-intizamı ilə seçilir. Elə koronavirus pandemiyasına görə tətbiq edilən karantin zamanı mən müşahidə etdim, polis küçədə, məhəllələrdə çox gözəl xidmət apardı. İnsanlarla mehribanlığının, mədəniyyətinin şahidi olmuşam, bununla qürur duyuram. Həkimlərlə bərabər, polisimiz də gecə-gündüz çalışdı, hazırda da çalışır. Amma yenə də deyirəm, Yasamaldakı əməliyyat zamanı polisin qadını təhqir etməsi düzgün deyildi. Polis orada insanları təhqir edib, "dovşansız" ifadəsini işlədib.

### *"...işdən çıxarılması düzgün qərardır"*

Bunu edən şəxsin cəzalandırılaraq işdən çıxarılması düzgün qərardır. Daxili İşlər naziri Vilayət Eyvazov da bu məsələyə ciddi yanaşdığına görə - hansı ki, polisin cəzalandırılması ilə öz mövqeyini ortaya qoydu - çox ümid edirəm ki, obyektiv bir araşdırma olacaq, kimliyindən asılı olmayaraq, qanunu pozan hər kəs qanun qarşısında cavab verəcək".

*Günel CƏLİLOVA*

# Koronavirus məsələsində Azərbaycanın daha bir uğurlu müqayisəsi inkişaf etmiş ölkələrlə aparıldı

**"Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alır. Dünya praktikası tam başqadır. Bir çox ölkələrdə xəstəliyi simptomsuz keçirənlər, xəstəliyə düçar olmuş insanlar ev şəraitində müalicə alırlar, onları heç xəstəxanalara da qəbul etmirlər.**

### *"...ölkəmizdə bütün xəstələr eyni səviyyədə müalicə olunur, burada hər hansı bir yaş faktoru, məhdudiyyəti yoxdur"*

Əlbəttə ki, bu, onların sağlamlığına təhlükə yaradır. Azərbaycanda koronavirusdan ölənlərin sayının az olmasının səbəblərindən biri də məhz odur ki, yoluxmuş bütün xəstələr tibbi müəssisələrə qəbul edilir və onlara lazımi xidmət göstərilir".

Bu sözləri Prezident İlham Əliyev paytaxtın Bilgəh qəsəbəsində, həmçinin, Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan modul tipli xəstəxana komplekslərinin açılışında çıxışı zamanı qeyd edib.

Prezident bildirib ki, koronavirusla bağlı qabaqlayıcı bütün tədbirlər elə görülüb ki, ən çətin vəziyyətə hazır olaq. Bu məqsədlə yeni laboratoriyalar alınıb.

Doğrudan da bu gün koronavirusdan əziyyət çəkən ölkələrlə müqayisədə Azərbaycan ön sırada dayanır. Bir sıra inkişaf etmiş ölkələrlə müqayisədə Azərbaycanda bu xəstəliyə yoluxanlar xəstəxanada müalicə alır, onlara hər bir tibbi göstəriş tətbiq olunur. Ancaq əksər xarici ölkədə xüsusi risq qrupuna aid olan xəstələr xəstəxanaya qəbul edilmir, onların sağalması üçün soyuq münasibət göstərilir. Bu səbəbdən də xarici ölkələrdə koronavirusdan vəfat edənlərin sayı Azərbaycanla müqayisədə çoxdur.

"Vəfa" Sosial-İctimai Birliyinin sədri Fatimə Hacıbəyli qəzetimizə açıqlamasında qeyd etdi ki, Azərbaycan ilk gündən bu epidemiyanın lokallaşdırılması üçün həm məhdudiyyət tədbirlərini həyata keçirdi, həm də xəstələrin üzə çıxarılması, onların müalicə olunmasını böyük diqqətə götürdü. "Başqa ölkələrlə müqayisədə Azərbaycanda koronavirusdan əziyyət çəkən xəstələrin sayı elə də sürətlə artmır. Bu baxımdan ölkəmiz inkişaf etmiş ölkələrdən bələ fərqlidir. Hər milyon nəfərə düşən xəstə sayına görə Azərbaycanın göstəriciləri çox aşağıdır. Azərbaycanda koronavirusa yoluxanları Avropa ölkələri və digər ölkələrlə müqayisə etsək, burada böyük fərq aşkar olunar. Bir sıra Avropa ölkələrində gün ərzində koronavirusa yüz yox, minlərlə insan yoluxur. Avropa ölkələrinin əhali sayı Azərbaycandan 7-8 dəfə çoxdur. Ancaq, bununla belə, Azərbaycanda həm xəstələrin, həm də ölənlərin sayı pandemiyanın geniş yayıldığı ölkələrlə müqayisədə həddən artıq aşağıdır. Avropa ölkələri, həmçinin, qoca, yaşlı insanların müalicəsindən imtina yolu tutublar. Bununla bağlı kifayət qədər fakt var. Azərbaycanda isə virus aşkarlanan bütün xəstələrə göstərilən münasibəti başqa ölkələrlə müqayisə edə bilmərik.

## *Fatimə Hacıbəyli: "Azərbaycanda həm xəstələrin, həm də ölənlərin sayı pandemiyanın geniş yayıldığı ölkələrlə müqayisədə həddən artıq aşağıdır"*



Ölkəmizdə bütün xəstələr eyni səviyyədə müalicə olunur, burada hər hansı bir yaş faktoru, məhdudiyyəti yoxdur. Azərbaycan, Avropa ölkələri və digər dövlətlər kimi, koronavirusa tutulan xarici vətəndaşları öz ölkələrinə deportasiya etmir, əksinə, imkanları hesabına onları da müalicə etdirir. Vaxtında sərhədlərin bağlanması, insanların hərəkətinə məhdudiyyətlərin qoyulması, vaxtında laboratoriyaların, müayinə və müalicə vəsaitlərinin, xüsusən də müayinə testinin alınması bu xəstəliyin daha geniş yayılmasının qarşısını aldı".

*Günel CƏLİLOVA*

"Təxmin edirdim ki, beş ayın yekunları artıq tənəzzülü əks etdirəcək, belə də oldu". Bunu Prezident İlham Əliyev modul tipli xəstəxananın açılışından sonra həkim kollektivi ilə görüşündə çıxışı zamanı deyib.



# Prezidentin Azərbaycanda koronavirus dövrü üçün daha bir proqnozu doğruldu - 1,7 faiz iqtisadi tənəzzül...

## *Fuad İbrahimov: "Söhbət problemin öhdəsindən gəlməkdən və prosesləri peşəkarcasına idarə etməkdən gedir"*

Ölkə başçısının sözlərinə görə, bu müddət ərzində Azərbaycan dövləti çox böyük məsuliyyət göstərib: "İlk növbədə, ölkə daxilində. Çünki iki seçim var idi - ya iqtisadiyyatı xilas etmək, ya da insanların sağlamlığını. Şəxsən mənim üçün, birmənalı qaydada, tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olubdur, o cümlədən, pandemiya dövründə. Ona görə biz şüurlu şəkildə, bunun iqtisadi fəallığımıza mənfi təsir göstərəcəyini bilərək, məhdudlaşdırıcı addımlara getdik. Mən bildirmişdim ki, keçən ay əldə edilmiş nəticələrdə kiçik də olsa, artım var - 0,2 faiz. Ancaq təxmin edirdim ki, beş ayın yekunları artıq tənəzzülü əks etdirəcək, belə də oldu. Mənə verilən məlumata görə, ümumdaxili məhsul beş ayda 1,7 faiz aşağı düşüb. Ancaq yenə də bir çox inkişaf etmiş ölkələrlə müqayisədə bizdəki tənəzzül çox kiçikhəcmlidir. Bununla paralel olaraq bildirməliyəm ki, sənaye istehsalı bir qədər artıb. Amma qeyri-neft sektorunda sənaye 14 faiz artıb. Kənd təsərrüfatı 3,6 faiz artıb. İnsanların orta əməkhaqqı 740 manata yaxınlaşıb. Bu, təqribən 430 dollardan çoxdur. İnflyasiya 3 faizdən aşağıdır, yəni proqnozlaşdırılmış səviyyədədir".

Göründüyü kimi, ölkə başçısının koronavirus dövrü ilə bağlı daha bir proqnozu özünü doğrultdu. Bu, bir daha onu təsdiq edirmi ki, Azərbaycanda koronavirusla bağlı bütün proses tam dəqiq idarə olunur?

*"Bir sıra inkişaf etmiş ölkələrlə müqayisədə Azərbaycanda koronavirusla bağlı proseslər daha düzgün idarə edilir"*

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, bir sıra inkişaf etmiş ölkələrlə müqayisədə Azərbaycanda koronavirusla bağlı proseslər daha düzgün idarə edilir: "Azərbaycanda bu proseslər kifayət qədər uğurla idarə edilir. Bizdə proseslər idarəolunma çərçivəsindən kənara çıxmayıb. Hesab edirəm ki, bu, uğurlu göstəricidir. Hansısa ölkədə əhalinin say nisbətini götürüb Azərbaycan əhalisi ilə müqayisə edəndə biz bir sıra dövlətlərdən irəlidəyik. Söhbət problemin öhdəsindən gəlməkdən və prosesləri peşəkarcasına idarə etməkdən gedir. Çünki vəziyyət nəzarətdən çıxdığı halda, o zaman bu, xaosla nəticələnə bilər. Bu gün iqtisadi cəhətdən inkişaf etmiş İspaniya, Birləşmiş Ştatlar, İtaliya koronavirus pandemiyası ilə mübarizədə çox çətin vəziyyətdədir. Azərbaycan isə bu baxımdan çox yaxşı durumdadır. Düzdür, bizdə vətəndaşlarda bir az məsuliyyətsizlik var, yoluxma sayı artır. Ancaq buna baxmayaraq, bu günə qədər idarəetmədə effektivlik müşahidə edilir. O baxımdan hesab edirəm ki, Azərbaycanda koronavirusla bağlı proseslər dəqiq idarə olunur".

***Vidadi ORDAHALLI***

"Biz fərdi qaydada 14 ölkəyə humanitar yardım göstərdik. O ölkələr ki, buna onların ehtiyacı var və bizə müraciət etmişdilər. Eyni zamanda, biz Ümumdünya Səhiyyə Təşkilatı xətti ilə əlavə 15 ölkəyə humanitar yardım göstəririk. İndi bu proses gedir.



# Pandemiya dövründə Azərbaycanı lider kimi tanıdan daha bir amil - ən çox yardım edən ölkə...

## *Rüfət Quliyev: "Prezident İlham Əliyev koronavirus pandemiyası dövründə Azərbaycanın dünyada nüfuzunu, imicini daha da yüksəltdi"*

Bu 15 ölkə Qoşulmama Hərəkatına üzv olan ölkələrdir. Ölkələrin siyahısı Ümumdünya Səhiyyə Təşkilatı və Azərbaycan tərəfindən razılaşdırılıb. Burada əsas meyar ən çox ehtiyacı olan ölkələrdir".

Bu sözləri Prezident İlham Əliyev paytaxtın Bilgəh qəsəbəsində, həmçinin, Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan modul tipli xəstəxana komplekslərinin açılışında deyib.

O qeyd edib ki, pandemiyanın ilkin dövründə bəzi ölkələr özlərinə qapandılar. Bəzi ölkələr humanitar məsələlərdə də özlərini elə apardılar ki, sonra yeqin utandılar. Bəzi ölkələr təşviş içində idi. Biz bəzən vəsaitlə aldığımız tibbi avadanlığı gətirməkdə çətinlik çəkirdik. Ona görə indiki şəraitdə hesab edirəm ki, dünya birliyi vahid mövqedən çıxış etməlidir: "Ancaq fərdi qaydada 14 ölkəyə humanitar yardım göstərdik".

Qeyd edək ki, belə ağır günlərdə xüsusən də ehtiyacı olan dövlətlərə Azərbaycan öz yardım əlini uzatdı və bu da çox təqdirəlayiqdir. Təbii ki, pandemiyaya qarşı mübarizədə öndə gedən beynəlxalq təşkilatlar da gözardı edilmədi. Azərbaycan bu cür davranır və bu davranışı göstərmək üçün də imkanlara malikdir.

Millət vəkili Rüfət Quliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, koronavirus pandemiyası dövründə ölkə başçısı tərəfindən atılan addımlar Azərbaycanın dünyada nüfuzunu daha da artırıb: "Azərbaycan bu günə qədər 14 ölkəyə və 3 beynəlxalq təşkilata yardım göstərib. Azərbaycan imkanları daxilində dünyaya hər zaman kömək etməyə hazır olduğunu ortaya qoydu. Prezident İlham Əliyevin təşəbbüsü və sədrliyi ilə ilk dəfə videokonfrans formatında Türk Şurası və Qoşulmama Hərəkatı Təmas Qrupunun Zirvə görüşləri ən

*"...ölkəmiz imkanları daxilində dünyaya hər zaman kömək etməyə hazır olduğunu ortaya qoydu"*

yüksək səviyyədə təşkil edilib. Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunun hər iki Zirvə görüşünə qatılması, Qoşulmama Hərəkatı Təmas Qrupunun Zirvə görüşündə Avropa İttifaqının yüksək vəzifəli nümayəndəsinin iştirakı, Prezident İlham Əliyevə təşəkkürlərini bildirməsi xüsusi qeyd olunmalıdır. Təsadüfi deyil ki, Qoşulmama Hərəkatı Təmas Qrupunun və Türk Şurasının yekun bəyannaməsində Azərbaycanın xüsusi rolu qeyd olundu.

Onu da qeyd edim ki, koronavirusla bağlı sərhədlərin, ölkələrin qapandığı, problemləri təkbaşına həll etməyə çalışdığı bir dövrdə Prezident İlham Əliyev ilk lider oldu ki, Qoşulmama Hərəkatı Təmas Qrupunun Zirvə görüşündə dövlətləri birləşərək problemləri birgə həll etməyə çağırdı. Dövlət başçısı Azərbaycan təcrübəsini bölüşməyə hazır olduğunu bəyan etdi, ölkəmizin nəqliyyat-logistik infrastrukturunu istifadə üçün təqdim etməyə hazır olduğunu açıqladı.

Bununla da multilateralizm prinsipi ortaya qoyuldu. Multilateralizm dünyanın qloballaşması fonunda son 15 ildə səslənir. Bu prinsip iqtisadi birlikdə olan ölkələrin hər birinin bu birlikdən, beynəlxalq iqtisadi münasibətlərdən faydalanmasını nəzərdə tutur. Prezident İlham Əliyevin atdığı addımlar, etdiyi çağırışlar məhz multilateralizm prinsipinə əsaslanır və bu, multilateralizm aspektində əməli fəaliyyət baxımından bir ilkdir. Prezident İlham Əliyev koronavirus pandemiyası dövründə Azərbaycanın dünyada nüfuzunu, imicini daha da yüksəltdi".

***Günel CƏLİLOVA***

**Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə üç modul tipli xəstəxananın açılışı olub. Prezident tədbirdəki nitqində koronavirusla mübarizənin Azərbaycan modelindən danışıb: "Onu da bildirməliyəm, Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alır.**

# Koronavirusla mübarizədə Azərbaycan modelinin xarakterik özəllikləri... Əsas istiqamətləri Prezident göstərdi




Dünya praktikası tam başqadır. Bir çox ölkələrdə xəstəliyi simptomsuz keçirənlər, xəstəliyə düçar olmuş insanlar ev şəraitində müalicə alırlar, onları heç xəstəxanalara da qəbul etmirlər. Əlbəttə ki, bu onların sağlamlığına təhlükə yaradır. Azərbaycanda koronavirusdan ölənlərin sayının az olmasının səbəblərindən biri də məhz odur ki, yoluxmuş bütün xəstələr tibbi müəssisələrə qəbul edilir və onlara lazımi xidmət göstərilir".

Prezident bildirib ki, dünyada baş vermiş hadisələrə və bir çox inkişaf etmiş ölkələrdə koronavirusla bağlı acınacaqlı vəziyyətə baxdıqda bir daha görürük ki, Azərbaycan bu sahədə də öz modelini ortaya qoyub və bütün hədəflərə ardıcıllıqla, məqsədyönlü şəkildə çata bilib:"Əlbəttə ki, mən bizi başqa ölkələrlə müqayisə etmək fikrində deyiləm. Ancaq dünyada hər şey müqayisə ilə ölçülür. Misal üçün, bugünə qədər Azərbaycanda yoluxanların sayı 8 minə qədərdir, 350 mindən çox test keçirilib və adambaşına testlərin sayına görə biz qabaqcıl yerlərdəyik. Ancaq qonşu Ermənistanda yoluxanların sayı 13 mini ötüb və testlərin sayı bizdəkindən 5-6 dəfə azdır. Nəzərə alsaq ki, Ermənistan əhalisi Azərbaycan əhalisindən 5 dəfə azdır, mənzərə tam aydındır. Əgər mən gündə yüzlərlə təşəkkür məktubu alıramsa, Ermənistan rəhbərliyi yüzlərlə lənətlə dolu çağırışlar eşidir".

Ölkə başçısının rəhbərliyi altında Azərbaycan doğrudan da pandemiya ilə mübarizədə öz modelini ortaya qoya bilib. Bu gün koronavirus infeksiyasına yoluxanların sağalması üçün ən müasir tibbi avadanlıqlar, müalicə üçün yeni dərman preparatları ölkəyə gətirilir. Əgər fevral ayının əvvəllinə qədər ölkəmizdə 2 test laboratoriyası mövcud idisə, qısa müddət ərzində bu say 20-yə çatdırıldı. Yeni 10 modul tipli xəstəxananın quraşdırılması ilə bağlı ölkə prezidenti tərəfindən imzalanan sərəncam, qısa müddət ərzində onların bir neçəsinin açılışının həyata keçirilməsi, yeni istehsal müəssisələrinin yaradılması, ölkəmizdə daha çox vətəndaşın müayinəsinin həyata keçirilməsi, tibbi testlərin ölkəmizə gətirilməsi Azərbaycan Prezidentinin apardığı siyasətin mərkəzində ölkə vətəndaşının dayandığını göstərir.

İnsanlarımızın minimal zərər və maksimal qabiliyyətlə COVİD-19-la mübarizə çərçivəsində dövlətin həyata keçirmiş olduğu ciddi layihələr və bu layihələrin dünya səhiyyə təşkilatı tərəfindən yüksək qiymətlədnirlməsi, dəfələrlə Azərbaycan Prezidentinə təşəkkür edilməsi onu göstərir ki, bu gün Azərbaycan modeli qlobal pandemiyaya qarşı mübarizədə xüsusi yer tutur. Bununla bağlı ən yüksək səviyyədə müzakirələrin aparılması ilə dövlət başçısının həm ölkəmizin bugünkü dövrü, həm də bundan sonrakı uzunmüddətli inkişaf trayektoriyası üçün konkret planlara sahib olduğu və ölkəmizin hər bir vətəndaşının sağlamlığının keşiyində durduğu, bu yöndə konkret addımlar atdığı ortaya çıxıb. Beynəlxalq təşkilatlar, xüsusilə dünya səhiyyə təşkilatı tərəfindən Azərbaycan modeli yüksək qiymətləndirilir. Azərbaycan öz təşəbbüsləri və praktik addımları ilə dünyada həmrəyliyin möhkəmlənməsinə, indiki mürəkkəb şəraitdə dövlətlər və xalqlar arasında təmasların artmasına, qlobal pandemiya ilə mübarizədə səfərbərliyə ciddi töhfələr verib. Bundan başqa, Azərbaycan koronavirusla qlobal mübarizəyə dəstək olaraq, ÜST-ə 5 milyon dollar könüllü maliyyə yardımı da ayırıb. O bunu pandemiya ilə mübarizədə yardıma ən çox ehtiyacı olan Qoşulmama Hərəkatı üzvlərinin dəstəklənməsi məqsədilə edib.

ÜST-ün baş direktoru Tedros Adhanom Qebreyesus Prezident İlham Əliyevə martın 23-də ünvanladığı məktubda Azərbaycanın pandemiya ilə mübarizədə gördüyü işləri yüksək qiymətləndirib, bu mənada Azərbaycanı nümunəvi ölkə adlandırıb. Həqiqətən də, Prezident İlham Əliyevin rəhbərliyilə görülmüş qabaqlayıcı tədbirlər nəticəsində bu gün koronavirusla ən effektiv mübarizə aparan ölkələrin sırasında Azərbaycanın adı birincilər cərgəsində çəkilir, onun bu fəaliyyəti beynəlxalq səviyyədə təqdir olunur. Konkret olaraq, sosial-iqtisadi sahədə atılmış addımlar dünyanın aparıcı maliyyə qurumları, o cümlədən Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən yüksək qiymətləndirilir.

***Məhəmmədəli QƏRİBLİ***

---

**Məlum olduğu kimi, Azərbaycanda yeni nov koronavirus (COVID-19) xəstəliyi ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyət təhlil edilib və son günlərdə virusa yoluxma sayı, xəstəliyin yayılma dinamikası nəzərə alınaraq, ölkə üzrə xüsusi karantin rejiminin 1 iyul 2020-ci il saat 00:00-dək uzadılmasına qərar verilib.**

# Azərbaycanda karantin rejiminin 1 iyuladək uzadılması ciddi əsaslardan irəli gəldi



Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, ölkədə virusa ilk yoluxma faktının qeydə alındığı tarixdən bu günədək COVID-19 testi müsbət çıxmış 8191 nəfər aşkarlanıb, hazırda isə 3487 aktiv xəstə müalicəsini xüsusi karantin rejimli xəstəxanalarda davam etdirir. Ölkə üzrə sanitar-epidemioloji vəziyyətin təhlilinə əsasən, son günlər Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarında yüksək yoluxma faktları aşkar edilib. Bu baxımdan COVID-19 virusunun yayılma sürətinin azaldılması, eləcə də onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə 2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun saat 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərinin, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarının ərazisində sərtləşdirilmiş karantin rejimi tətbiq ediləcək.

## *Rəsul Cahangirli: "Xüsusi karantin rejiminin 1 iyuladək uzadılması düzgün qərardır"*

Ümumilikdə, nəzərə alsaq ki, rəsmi məlumata görə, yoluxanların və virusdan ölənlərin sayında artım var, o baxımdan sözügedən addım doğru idi. Mövcud vəziyyət belə karantin müddətinin uzadılmasını zərurətə çevirdi. Maraqlıdır, bəs ekspertlər ölkə üzrə xüsusi karantin rejiminin 1 iyuladək uzadılması qərarına necə yanaşırlar?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin fikrincə, karantin rejimi müddətinin uzadılması doğru qərardır: "Məsələ ondadır ki, hələlik bunun alternativi yoxdur. Çünki dünyanın heç bir ölkəsində infeksiyanın birmənalı müalicə metodu tapılmayıb. Baxmayaraq ki, bu istiqamətdə ciddi araşdırmalar aparılır. Hələlik yeganə çıxış yolu insanın özünü qorumasıdır. Bu da gigiyenik qaydalara əməl etməkdən keçir. İlk dövrlərdə bir sıra dünya dövlətləri infeksiyanın mövcudluğuna ciddi yanaşmadı.

*"Son günlər mövcud karantin rejimi qaydalarının əhali tərəfindən kütləvi surətdə pozulması halları var"*

Bunun nəticəsi çox ağır oldu. Koronavirus bir sıra ölkələrdə kəskin formada yayılmaqdadır. Bu səbəbdən həmin ölkələrdə pandemiyanın qurbanı olan on minlərlə insan var. Ancaq Azərbaycanda pandemiyanın ilkin mərhələsindən vətəndaşların sağlamlığının qorunması istiqamətində kompleks addımlar atıldı. Son günlər mövcud karantin rejimi qaydalarının əhali tərəfindən kütləvi surətdə pozulması halları var. Bu da ölkənin bir sıra bölgələrində sanitar-epidemioloji vəziyyətə ciddi təsir göstərib. Bir ay bundan qabaq yoluxmaların artımı ikirəqəmli olduğu halda, artıq artım üçrəqəmli saylara yüksəlib. Ona görə də xüsusi karantin rejiminin 1 iyuladək uzadılması düzgün qərardır. Hesab edirəm ki, tətbiq edilən xüsusi karantin rejiminə riayət etmək lazımdır. Hamı qaydalara əməl etməlidir".

***Vidadi ORDAHALLI***

# Virusla mübarizədə Azərbaycanın müstəsna uğurlarının əsas şərti - bütün xəstələr xüsusi şəraitdə müalicə alır

## *Nəsib Quliyev: "Bunlar hamısı Azərbaycan dövlətinin sosialyönümlü siyasətinin uğurlu nəticələridir"*




*"...hazırda bizə Azərbaycanda virusa yoluxanları tam şəkildə stasionar müalicəyə cəlb etmək imkanı verdi"*

**İyunun 9-da Prezident İlham Əliyevin iştirakı ilə üç modul tipli xəstəxananın açılışında ölkə başçısı bir sıra məsələlərlə yanaşı, koronavirusa yoluxan bütün xəstələrin xəstəxanalarda müalicə olunduğunu vurğulayıb: "...Onu da bildirməliyəm, Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alır.**

Dünya praktikası tam başqadır. Bir çox ölkələrdə xəstəliyi simptomsuz keçirənlər, xəstəliyə düçar olmuş insanlar ev şəraitində müalicə alırlar, onları heç xəstəxanalara da qəbul etmirlər. Əlbəttə ki, bu, onların sağlamlığına təhlükə yaradır. Azərbaycanda koronavirusdan ölənlərin sayının az olmasının səbəblərindən biri də məhz odur ki, yoluxmuş bütün xəstələr tibbi müəssisələrə qəbul edilir və onlara lazımi xidmət göstərilir".

Qeyd edək ki, Azərbaycandan fərqli olaraq, hətta özünü ən inkişaf etmiş dövlətlər sayan ölkələrdə koronavirusa yoluxan xəstələrin tibb müəssisələrində yerləşdirilməsi ilə bağlı ciddi problemlər var, bir çox xəstə xəstəxanaların dəhlizlərində, parklardakı səyyar çadırlarda yerləşdirilib, hətta bir qisim xəstə isə müalicə olunmadan evə göndərilir.

Azərbaycanda koronavirusa yoluxan bütün xəstələrin yalnız xüsusi tibb müəssisələrində müalicə almasının səbəblərini şərh edən K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, tibb elmləri doktoru, professor Nəsib Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanda koronavirusa yoluxan xəstələrin xəstəxanalarda stasionar müalicəyə cəlb olunması təsadüfi deyil. "Bunun üçün şərait 2003-2005-ci illərdə yaradılmağa başlanıb. Həmin illərdən başlayaraq keçən ilə qədər ölkəmizdə 750 tibb müəssisəsinin ya yenisi tikilib, ya da tam bərpa edilərək avadanlıqlarla təchiz olunub. Əgər keçən ilə qədər bu işlər görülməsəydi, görün, biz necə ağır vəziyyətə düşərdik. Bugünki vəziyyət, ilk növbədə, cənab Prezidentin fəaliyyətinin ilk illərindən başlayaraq sosial sahədə, xüsusən də səhiyyə və təhsil sahəsində islahatların aparılmasının nəticəsidir. Dünyada elə bir ölkə tapa bilməzsiniz ki, 15 ilə 750 tibb müəssisəsi yaratsın. Onu mən ilin həftələrinə böldükdə hər həftəyə bir tibb müəssisəsi düşür. Bir ildə təxminən 50 həftə var. Yəni bu o zamanlar çox böyük sürətlə görülən işlərin nəticəsidir ki, hazırda bizə Azərbaycanda virusa yoluxanları tam şəkildə stasionar müalicəyə cəlb etmək imkanı verdi. Siz fikir verin, bu KİV-də də göründü, Avropanın Fransa, İtaliya, İngiltərə və digər inkişaf etmiş ölkələrində virusa yoluxan xəstələri dəhlizlərə, hətta yerə, parklara qoyublar. Bu ona görə onlarda belə oldu ki, zamanında səhiyyələrində müvafiq islahatlar aparmamışdılar, belə qorxulu hadisələrə hazır deyildilər. Amma Azərbaycanda bu hazırlıq işləri görüldüyü üçün, hazırda biz belə çətin vəziyyətdən üzüağ çıxmışıq və göstəricilərimiz də dünyanın inkişaf etmiş ölkələrindən qat-qat yaxşıdır. Avropada ölkələr var ki, onların əhalisi təxminən bizim ölkənin əhalisi qədərdir. Amma onlarda ölüm minlərlə ölçülür, bizdə heç 100-ə də çatmayıb. Görün, nə qədər fərq var. Bunlar hamısı Azərbaycan dövlətinin sosialyönümlü siyasətinin uğurlu nəticələridir ki, biz bilavasitə praktikada bunu görürük. Yadımdadır, 2003-cü ilin noyabrında cənab Prezident fəaliyyətə başladığı ilk ayda geniş Dövlət Proqramı qəbul olundu. Bu, Azərbaycan Respublikasında Sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında Dövlət Proqramı idi. Bu görülən işlərin məntiqi və qanunauyğun nəticələridir ki, bu gün biz çətin vəziyyətdən dünyanın çox ölkəsindən daha yüksək səviyyədə, daha uğurla çıxa bilirik. Hər kəsin gözünün qarşısındadır. Qısa müddətdə COVID-19-la bağlı modul tipli xəstəxanalar tikilib".

N.Quliyev təəssüflə qeyd etdi ki, düzdür, karantin rejimi yumşaldıqdan sonra əhalinin müəyyən bir qismi karantin tədbirlərinə, sosial izolyasiya, sosial məsafə məsələsinə əməl etmir. "Bunlara doğru-düzgün riayət edilmədiyinə görə xəstələrin sayı artıb və məcburiyyət qarşısında karantin rejimi bir az sərtləşdirilməyə doğru gedir. Amma insanlar da deyilən qaydalara əməl etsələr, maska taxsalar, sosial məsafə saxlasalar, əllərini yusalar, bütün gigiyenik tələblərə əməl etsələr, təbii ki, yoluxma sürətlə azalacaq. Açığını desək, bu gün daha çox məsuliyyət vətəndaşlarımızın üzərinə düşür ki, hər kəs bu işə özünün gücü çatan mümkün olan dəstəyi versin. Vətəndaşlarımız öz sağlamlığının xatirinə, xalqımızın adına layiq bu işləri görməlidir. Bu gün dünyada koronavirus pandemiyası ilə mübarizə ilə bağlı, obrazlı desək, bir yarış gedir. Yəni hansı xalq daha intizamlıdır, hansı dövlət bu problemin qarşısını almaqda daha güclüdür, harada aparılan tədbirlər daha effektivdir?

**Yəni biz də vətəndaş, əhali və xalq olaraq gərək dünyaya sübut edək ki, biz bu işlərdə də hamıdan yaxşı təşkilatlanmışıq. Amma təəssüf ki, aramızda bəzi məsuliyyətsiz adamlar var. KİV və mütəxəssislər də bu insanları çalışıb başa salmalıdır ki, bəli, dövlət bu qədər iş görür, beynəlxalq təşkilatlar qarşısında bizim üzümüzü ağ edir, biz də üzümüzü ağ edək. Bizdən asılı olanı da gərək biz edək ki, dövlətimizin işi daha da yaxşı olsun, ölkəmizin adı dünyaya yayılsın" - deyə N.Quliyev vurğuladı.**

*İradə SARIYEVA*

# Azərbaycan BMT Baş Məclisinin xüsusi ümumdünya koronavirusla mübarizə konfransına nail ola bilsə...

**Prezident İlham Əliyev paytaxtın Bilgəh qəsəbəsində, həmçinin, Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan modul tipli xəstəxana komplekslərinin açılışında bir sıra məsələlərə toxunub.**

*"...sözügedən tədbir keçirilsə, bu, dünyada Azərbaycanın rolunu və nüfuzunu daha da artıracaq"*

## *Fikrət Sadıqov: "Koronavirusla mübarizədə dövlətlərin ortaq mövqedən çıxış etməsi zəruridir"*



Dövlət başçısı bildirib ki, ölkəmiz Qoşulmama Hərəkatının üzvlərinə, ilk növbədə, müraciət edərək təklif edib ki, BMT Baş Assambleyasının COVID-19 ilə bağlı xüsusi sessiyası keçirilsin: "Bu dəstəyi biz aldıq, Qoşulmama Hərəkatının üzvləri bu təşəbbüsümüzü yekdilliklə dəstəklədilər və ondan sonra biz BMT Baş katibinə, - o, Qoşulmama Hərəkatının Zirvə görüşündə öz sözünü demişdi, müraciətini səsləndirmişdi, - müraciət etdik və indi cavab gözləyirik. Hesab edirəm ki, indiki şəraitdə dünya birliyinin bu məsələ ilə bağlı vahid mövqedən çıxış etməsi zəruridir. Bütün dünya birliyini birləşdirən təşkilat Birləşmiş Millətlər Təşkilatıdır. Ona görə biz belə təkliflə çıxış etdik və ümid edirik ki, bu, müsbət qarşılanar. İndi biz ikitərəfli və çoxtərəfli formatda məsləhətləşmələr aparırıq və əgər bu təklif qəbul olunarsa, onda, bax, dediyim kimi, bir daha Azərbaycanın təşəbbüsü ilə dünya birliyi birləşib bu məsələ ilə bağlı öz sözünü deyəcək".

Prezident onu da qeyd edib ki, burada əsas məsələ özünə qapanmamaqdır: "Ona görə indiki şəraitdə hesab edirəm ki, dünya birliyi vahid mövqedən çıxış etməlidir".

Bütün bu deyilənlərlə yanaşı, BMT Baş Assambleyasının COVID-19 ilə bağlı xüsusi sessiyası baş tutsa, bu, Azərbaycanın dünyadakı nüfuzuna necə təsir edəcək?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, BMT-də koronavirusla bağlı həmin tədbir keçirilsə, bu, Azərbaycanın dünyada nüfuzunun daha da yüksəlməsinə öz müsbət təsirini göstərəcək: "Azərbaycan Qoşulmama Hərəkatının sədridir. Ölkəmizin təşəbbüsünü Hərəkat dəstəkləyirsə, o zaman BMT də buna xüsusi önəm verməlidir. Nəzərə almaq lazımdır ki, 120 ölkə Qoşulmama Hərəkatında təmsil olunur. Bu o deməkdir ki, BMT üzvlərinin əksəriyyəti QH-də təmsil olunan ölkələrdir. Nəzərə almaq lazımdır ki, QH-nin Azərbaycanda keçirilən tədbirində BMT Baş katibi də iştirak edib. Düşünürəm ki, BMT Azərbaycanın bu təklifini yüksək qiymətləndirəcək. Çox güman ki, sözügedən məsələ ilə bağlı BMT Baş Assambleyasında hansısa tədbir keçiriləcək. Azərbaycanın belə bir təşəbbüsü imkan verəcək ki, tərəflər fikir mübadiləsi aparsın və dövlətlər hansısa qərar çıxarsınlar. Məsələ ondadır ki, pandemiya məsələsi çox aktualdır. Koronavirusla mübarizədə dövlətlərin ortaq mövqedən çıxış etməsi zəruridir. O baxımdan hesab edirəm ki, sözügedən tədbir keçirilsə, bu, dünyada Azərbaycanın rolunu və nüfuzunu daha da artıracaq. Şəxsən mən buna şübhə etmirəm".

***Vidadi ORDAHALLI***

# Bütün dünya Azərbaycan və Ermənistanın pandemiya ilə mübarizələrinin fərqinə şahid oldu - Prezidentin uğurlu müqayisəsi...

**İyunun 9-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə üç modul tipli xəstəxananın açılışı olub. Bunlar paytaxtın Bilgəh qəsəbəsində, həmçinin Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan modul tipli xəstəxana kompleksləridir.**




## *Asif İbrahimov: "Vəziyyət o yerə çatıb ki, Paşinyan özünün və ailəsinin də guya virusa yoluxduğuna dair məlumat verib"*

Beləliklə, daha üç modul tipli xəstəxana istifadəyə hazırdır. Bu, COVID-19 pandemiyasının ölkəmizdə yayılması ilə mübarizədə olduqca mühüm əhəmiyyət kəsb edir. Modul tipli xəstəxanaların quraşdırılması ilə ölkənin səhiyyə sisteminin əlavə 2000 çarpayılıq ehtiyatı yaranır. Əsas məqsəd koronavirus xəstələrinin lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetməni və tibbi ələqələndirməni təmin etməkdir. Ölkə başçısı həmin xəstəxanaların açılışı zamanı söylədiyi nitqdə koronavirusun ölkəmizdə yaratdığı vəziyyətlə Ermənistandakı vəziyyət arasında müqayisə aparıb: "Əlbəttə ki, mən bizi başqa ölkələrlə müqayisə etmək fikrində deyiləm. Ancaq dünyada hər şey müqayisə ilə ölçülür. Misal üçün, bugünə qədər Azərbaycanda yoluxanların sayı 8 minə qədərdir, 350 mindən çox test keçirilib və adambaşına testlərin sayına görə biz qabaqcıl yerlərdəyik. Ancaq qonşu Ermənistanda yoluxanların sayı 13 mini ötüb və testlərin sayı bizdəkindən 5-6 dəfə azdır. Nəzərə alsaq ki, Ermənistan əhalisi Azərbaycan əhalisindən 5 dəfə azdır, mənzərə tam aydındır. Əgər mən gündə yüzlərlə təşəkkür məktubu alıramsa, Ermənistan rəhbərliyi yüzlərlə lənətlə dolu çağırışlar eşidir".

Ölkə başçısının koronavirusun doğurduğu reallıqlarla bağlı Azərbaycanla Ermənistan arasında apardığı müqayisə nəyi deməyə əsas verir?

Beynəlxalq qiymətləndirmə üzrə ekspert Asif İbrahimov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Nikol Paşinyan koronavirusa qarşı mübarizədə doğrudan da aciz vəziyyətdə qalıb:"Azərbaycanla onların vəziyyəti ölçüyə gəlməyəcək dərəcədə fərqlidir. Bizdə qısa zamanda bir neçə modul tipli xəstəxananın tikilib istifadəyə hazır olması ölkənin inkişafının göstəricisi sayıla bilər. Ermənistanda isə xəstələri yerləşdirməyə xəstəxana, virusa yoluxanlara qulluq etmək üçün tibbi personal çatmır. Vəziyyət o yerə çatıb ki, Paşinyan özünün və ailəsinin də guya virusa yoluxduğuna dair məlumat verib. Bütün bunlar xaricdən yardım əldə etmək üçün edilən imitasiyalardı. O, koronavirusla bağlı məlumatları "Facebook" səhifəsində yazmaqla Səhiyyə Nazirliyi və ya bu sahəyə məsul quruma inamının olmadığını sübuta yetirir. Ermənistan ictimaiyyətindən pandemiya qurbanları və yoluxanların sayının gizlədildiyi bildirilir. Saylarla bağlı şəffaflığın qorunmaması ölkədə yoluxanların sayının artmasına da təsir göstərib. Bu istiqamətdə saxtakarlıq əhalinin pandemiyanın yayılmasına, hətta olmasına inamını azaldıb. Vəziyyətin ağırlığını Paşinyan da etiraf edərək deyib ki, Ermənistanda vətəndaşlar tərəfindən təcrid qaydalarına əməl olunmaması üzündən koronavirusa yoluxma halları getdikcə çoxalır və vəziyyət daha da pisləşə bilər.

Ermənistan fövqəladə vəziyyət rejimi elan edib, hətta onun vaxtını uzatdı da. Azərbaycan isə buna zərurət görmədi. Ermənistan müxalifəti ölkədə fövqəladə vəziyyət rejiminin uzadılmasının qanunazidd və siyasi məqsəd daşıdığına dair bəyanat yaydılar. Belə çıxır, koronavirus Nikol Paşinyana kömək edir. O, pandemiyaya qarşı mübarizəni bəhanə gətirərək fövqəladə vəziyyət rejimini siyasi rəqiblərini susdurmaq üçün tətbiq edir. Prezident yoluxanların sayı ilə də bağlı maraqlı müqayisəni təqdim etdi. Test edilənlərin sayı dəfələrlə az olsa da, onlar yoluxma sayına görə bizi üstələyir".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan düşməni hərb müstəvisində çökdürməyə hazırlaşır, erməni mətbuatı "Paşinyan və uğursuz komandası"nın Ermənistanı fəlakətə sürüklədiyindən yazdı

**Ermənistan daxilində baş verən hadisələr bu ölkədə Dağlıq Qarabağ münaqişəsi ilə ilgili müəyyən maraqlı fikirlərin səsləndirilməsi ilə müşayiət edilməkdədir. Söhbət hakimiyyətdə mövcud kadr dəyişikliklərindən, həmçinin, iqtidar və müxalifət arasında kəskinləşən ziddiyyətlərdən gedir.**

Eləcə də, koronavirus pandemiyasının vurduğu zərərin miqyasının hər gün genişlənməsi və hakimiyyətin bunun əlində aciz qalması da duruma əsaslı surətdə təsir edir.

Yaranmış vəziyyətdə təhlillər göstərir ki, Nikol Paşinyan iqtidarı diqqəti daxildə yaranan gərginlik və ziddiyyətdən yayındırmaq üçün cəbhədə vəziyyəti yenidən destabil istiqamətə yönəltməkdə maraqlı görünür. Cəbhədə son dövrlərdə düşmən təxribatlarının və atəşkəsin pozulma hallarının artması da bunun təsdiqi hesab edilə bilər. Amma Ermənistanda o da xəbərdarlıq edilir ki, bu halda hərbi əməliyyyatlar yenilənsə, Azərbaycanın genişmiqyaslı hücuma başlaması ilə aprel zəfərindən də böyük qələbələrə imza atması qaçılmaz olacaq. Bunu hətta Ermənistanın keçmiş müdafiə naziri, general-polkovnik Seyran Ohanyan belə açıq etiraf edir. Ohanyan qeyd edib ki, mövcud vəziyyətdə Azərbaycan tərəfindən hərbi əməliyyatların yenidən başlaması həmişə mümkündür:"Biz istənilən ssenariyə hazır olmalıyıq". Elə Ermənistanın "Qraparak" qəzeti də məsələyə eyni prizmadan yanaşır: "Paşinyan və uğursuz komandası Ermənistanı fəlakətə sürükləyib, koronavirusun yayılması isə ölkəni çökdürür. İndi Paşinyan və komandasından yaxa qurtarmaq çoxlarının istəyidir. Artıq bu komanda işləyə bilmir, bunların hakimiyyətdən uzaqlaşdırılması və milli razılıq hökuməti yaratmaq kimi fikirlər formalaşır. Hətta Paşinyandan qurtulmaq üçün konkret təkliflər səsləndirilir. Biri, məsələn, növbədənkənar parlament seçkilərinin tez bir zamanda keçirilməsini təklif edir, digəri isə "Mənim addımım" ilə Paşinyanın yerinə başqa bir baş nazir seçilməsindən danışır. Hakimiyyəti Ermənistan prezidenti Armen Sarkisyana təhvil vermə variantı da maraqlıdır, amma Armen Sarkisyan, ilk növbədə komandan olmağa razı olmalıdır. Bir sözlə, Paşinyanı çıxarmaq üçün heç bir çatışmazlıq yoxdur və yalnız bunlardan birini seçmək qalır. Sual olunur nə vaxt? İş o yerə çatıb ki, Levon Ter-Petrosyanın düşərgəsində Paşinyanın hökumətdən mümkün "təcrid olunmasının" təhlükəsi hiss edilir. İndi Ter-Petrosyanın ofisinin Paşinyanın yaxınlaşan "devrilməsindən" narahat olması ilə bağlı məqamları şərtləndirən səbəblər çoxdur. Əsas səbəb Paşinyanın keçirdiyi uğursuz konstitusiya referendumudur, nəticədə Paşinyanın xəyalının o qədər də gerçəkləşməməsindən daha çox Ter-Petrosyan məyus oldu. Ter-Petrosyanın fikrincə, dövlət idarəçiliyinə dair konstitusiyanın qəbulu "ictimai gərginlik atmosferini əhəmiyyətli dərəcədə azaldır". Onun fikrincə, həmin dövrədək isə müvəqqəti davranış qaydaları hazırlanmalı idi. Aydın məsələdir ki, bu nəzəriyyə postsovet Ermənistanının müstəqilliyinin ilk illərində, bir tərəfdən belə bir konstitusiyanın olmadığı, digər tərəfdən ölkə dövlət işlərindən və milli ideologiyadan uzaq insanlar tərəfindən idarə edildiyi zaman mövcud ola bilərdi. Onların yürütdüyü siyasət nəticəsində 1994-cu ildə xalq arasında gərginlik yüksək idi. Bu gün də Paşinyanın davranışı 1990-cı illərdə "dəb halını alan" nəzəriyyənin işə salındığını, konstitusiya və Konstitusiya Məhkəməsinin tərkibini dəyişdirmədən əvvəl "müvəqqəti davranış qaydaları" ilə irəliləməli olduğumuza dair düşüncənin təkrarlandığını göstərir. Hər gün hamımız Paşinyanın davranışının müvəqqəti qaydalarını görür və hiss edirik, milli dövlətçiliyin taleyindən narahat olur və vəziyyətdən çıxış yolu axtarırıq. 1994-cü ildən 26 il sonra, Ermənistan vahid prezidentlikdən yarı prezident sisteminə keçdikdən sonra parlament idarəçiliyinə çevrildikdə, "konstitusiya dəyişikliyi" adı altında vahid baş nazirlik idarəetmə üsulu olaraq, baş nazirin parlamenti, baş nazirin Konstitusiya məhkəməsi, baş nazirin məhkəmələri, baş nazirin vahid höküməti, baş nazirin hüquq-mühafizə orqanları və güc strukturlarının yaradılmasına cəhd edilir. Paşinyan dincəlməyəcək və ya konstitusiya dəyişdirilməyincə dincəlməyə icazə verilməyəcək. İstər Konstitusiya quruluşunun devrilməsi, ya da xaricilərin dəstəyi olsun, heç bir ayrıseçkilik edilməməlidir. Mövcud konstitusiya və bu konstitusiyadan sonra hökumətin dəyişdirilməsi şəraitində bütün cəmiyyəti cəmi iki ildə parçalayan və milli dövlətçiliyi dağıdan balanssız və barışmaz bir düşüncə tərzində xəyali yeni Ermənistanın qurulması baş tutmalıdırmı? Hər şey, 1994-cü ildə olduğu kimi, təbii olaraq iqtidar administrasiyasının istefasına və ya hakimiyyətdən uzaqlaşdırılmasına doğru aparır. Bununla əlaqədar edə biləcəyiniz heç bir şey yoxdur. Şəxsiyyətini xilaskarla qarışdırmağa başlayan bütün liderlərin taleyi belədir. Xilaskarımızla vida mərasiminin nə vaxt baş tutacağını yalnız zaman göstərəcək. Bundan sonra, əlbəttə, köhnə və yeni xilaskarların birgə səyləri ilə məhv edilənləri xilas etmək üçün əvvəlcə təcili hökumət yaratmağımız lazım olmazsa, həqiqətən milli bir hökumət yaratmağımız lazım olacaq. Amma bunlara Paşinyanın müqaviməti cəmiyyətdə ondan narazılığı artırır. Bu vəziyyətdə diqqəti yalnız Qarabağ məsələsi daha çox dağıda bilər. Təsadüfi deyil ki, cəbhədə atəşkəs pozulması barədə xəbərlər yenidən daha çox diqqət mərkəzinə gətirilir. Azərbaycanın sərhəd zonalara, xüsusən də Naxçıvana hansısa raketlər yerləşdirməsi xəbəri dövriyyəyə buraxılır. Bəli, Azərbaycan hər zaman müharibəyə hazırlaşdığını bəyan edir. Amma indiki halda onu müharibəyə təhrik etmək Ermənistan üçün faydalı deyil. Siyasi hesablar üzündən müharibəni yenidən alovlandırmaq indi Ermənistan üçün təhdiddən və yeni təhlükələrdən başqa bir şey deyil. Aprel savaşı bunun ən acı təcrübəsidir".

Bununla yanaşı o da qeyd olunur ki, indiki halda İrəvan üçün önəmli olan danışıqlarda maraqlı olduğunu nümayiş etdirməkdir. Əks təqdirdə yeni savaş Ermənistanın nəzarətdə saxladığı ərazilərdən daha bir hissəsinin Azərbaycanın tərkibinə qayıtması ilə nəticələnəcək. Ermənistan Müdafiə Nazirliyinin keçmiş mətbuat katibi, erməni hərbi ekspert Artsrun Ovhannisyan da bildirir ki, Azərbaycan yeni savaşın başlanmasında maraqlıdır:"Ermənistan buna şərait yaratmamalıdır". Rusiyalı hərbi ekspert, Moskva Siyasi və Hərbi Təhlillər Mərkəzinin direktor müavini Aleksandr Xramçixin qeyd edir ki, Azəbaycan gücünə kifayət qədər arxayındır:"Bakı kifayət qədər silah-sursat ehtiyatı cəmləşdirib, ordunun döyüş qabiliyyətini yüksəldib. Bu durumda hansısa kiçik qığılcım yeni bir aprel savaşına təkan verə bilər. Ermənistan buna görə ehtiyatla davranmalı, cəbhədə sakitliyin olmasına daha çox çalışmalıdır. Amma hansısa məqsədlər üçün cəbhədə vəziyyət gərginləşərsə, bunun nəticələri barədə mütləq düşünmək lazım gəlir". Bu xəbərdarlıqlara rəğmən, Ermənistan hakimiyyəti hələ də lazımı nəticələr çıxarmaqda acizlik nümayiş etdirir. Bu da onunla izah edilir ki, ölkədə daxili vəziyyət qeyri-sabitdir və Paşinyan iqtidarı cəmiyyətdə düşmən obrazı yaratmaqla öz məqsədlərinə çatmaq istəyir. Bu durumda son bir necə gün ərzində cəbhədə baş verən hadisələr onu göstərir ki, Ermənistan hakimiyyəti, Serj Sarkisyan və Robert Köçəryan dönəmində olduğu kimi, hər nə vasitə ilə olursa olsun, hakimiyyəti saxlamaq üçün Qarabağ kartından istifadə etməkdə israrlıdır. Amma ekspertlərə görə, cəbhədə baş verənlər ilk növbədə Ermənistan hakimiyyəti üçün başağırısına çevriləcək. Çünki indiki halda Ermənistanın itkiləri getdikcə daha da çoxalır. Elə statistika da göstərir ki, erməni ordusunda vəziyyət acınacaqlıdır. Misal üçün, bu ilin başlanğıcından indiyə kimi erməni hərbi birləşmələri 40-a yaxın hərbi qulluqçusunu itirib. Onların arasında zabitlər də var. Bununla yanaşı, Azərbaycanın ağır zərbələri nəticəsində Ermənistan bir sıra vacib hərbi texnikasını da itirib. Bu durumda Qarabağda yeni müharibənin başlanması isə düşmən itkilərini daha da artıracaq. Ekspertlər də hesab edir ki, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Ermənistanın növbəti silahlı təxribatları Cənubi Qafqazın ən böyük ordusuna sahib olan Azərbaycanın düşmənə daha sərt cavab verməsi ilə nəticələnəcək. Bunu bilsə də, rəsmi İrəvanın bütün son addımları vəziyyəti kəskinləşdirməyə yönəlik olaraq qalmaqda davam edir. Halbuki, düşmən hər dəfə böyük uğursuzluq və erməni hərbçilərin öldürülməsi ilə layiqli cavabını alır. Amma görünən budur ki, Ermənistan hakimiyyəti hələ də bununla hesablaşmağı bacarmır. Ermənistanın Beynəlxalq İnsan İnkişafı Mərkəzinin rəhbəri Tevan Poqosyan da məsələyə məhz bu prizmadan yanaşır. Onun sözlərinə görə, Ermənistan vəziyyətin sakit məcrada inkişafında maraqlı olmalıdır:"Əgər sən hadisələrin bu cür inkişafına hazır deyilsənsə, savaş mütləq baş verəcək. Bu durumda o da görünür ki, Ermənistan rəhbərliyi öz xalqında xof yaratmağa çalışır ki, cəbhədə vəziyyət gərgindir, hər an müharibə başlaya bilər". Azərbaycan Silahlı Qüvvələrinin bölmələri isə indi bütün cəbhə boyu döyüş hazırlığındadır, əməliyyat şəraitinə tam nəzarət edir. Ordumuz hər hansı təxribata həmin anda dəqiq cavab verməyə hazırdır. Düşmən də bundan lazımı nəticə çıxarmalıdır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Ermənistan Rusiyaya qarşı proseslərdə özünə yol yoldaşı axtarışına çıxıb. Erməni mediasının verdiyi məlumata görə, Qırğızıstan prezidenti Sooronbay Jeenbekov Ermənistan Baş naziri Nikol Paşinyana zəng edib.**



# Paşinyan Avrasiya Birliyində Rusiyaya qarşı prosesə Qırğızıstanı da qoşmaq istəyir - yeni fiasko ərəfəsi...

## *Yeganə Hacıyeva: "Ermənistan elə bir cəzbedici ölkə deyil ki, kimsə onunla dərin əməkdaşlıqda maraqlı olsun"*

Ermənistan hökumətinin mətbuat xidmətindən verilən məlumatda türk respublikasının başçısının baş nazirin və ailəsinin səhhəti ilə maraqlandığı bildirilib:"Qırğızıstan prezidenti Ermənistan Baş nazirinin və ailəsinin sağlamlıq vəziyyəti ilə maraqlandı, onlara cansağlığı və uğurlar arzuladı". Tərəflər iyunun 24-də Moskvada İkinci Dünya Müharibəsində Qələbənin 75 illiyi münasibətilə keçiriləcək tədbirlər çərçivəsində həmsöhbət olacaqlarına ümid etdiklərini bildiriblər. Əlavə edək ki, Nikol Paşinyan bir müddət əvvəl özünün və ailə üzvlərinin koronavirusa yoluxduğunu açıqlamışdı.

Qeyd edilir ki, Ermənistan rəhbəri Qırğızıatanı Avrasiya İqtisadi Birliyi daxilində Rusiyaya qarşı demarşa istiqamətləndirməyə çalışır. Ermənistanın baş naziri Nikol Paşinyan ötən ayın ortalarında yerli jurnalistlər üçün keçirdiyi mətbuat konfransında "Avrasiya İqtisadi Birliyinin strateji inkişaf planı razılaşdırılıb və yalnız bir məqam - vahid qaz bazarı məsələsi açıq qalır" deyə açıqlama vermişdi. Qırğızıstanı da vahiq qaz bazarı ilə bağlı məsələdə ozləri ilə həmfikir olmağa istiqamətləndirməyə çalışırlar. Ermənistanın bu cəhdləri hansı effekti verə bilər?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanın məhz Qırğızıstana bu yöndə meyl etməsi təsadüfi deyil: "Bunun başlıca səbəbi Ermənistanın xarici siyasət kursunun hələ də qeyri-müəyyən olması ilə bağlıdır. Artıq sadə erməni də görür ki, hakimiyyət konkret istiqamət üzrə xarici siyasət kursu həyata keçirmir. Bütün bu tənələrdən uzaq olmaq üçün Ermənistan hakimiyyəti, güya müəyyən kombinasiyalı gedişlər etdiyinə dair təsəvvür yaratmaq istəyir. Əslində heç bir perspektivi olmayan gedişdi. Çünki Qırğızıstanla Ermənistanı yaxın edə biləcək elə bir ciddi əsaslar yoxdu. Bu ölkələr bir təşkilatda təmsil olunsalar da, tammilə fərqli coğrafiyalarda yerləşirlər. Ermənistandan fərqli olaraq, Qırğızıstanın mövqeyi, xarici siyasət kursu stabil və aydındır. Ermənistan hakimiyyəti belə gedişləri həm də daxili rəyi çaşdırmaq üçün edir. Çünki hazırda Ermənistandakı daxili vəziyyət çox gərgindir. Ermənistan daha çox çalışır ki, Rusiyadan güzəştli qaz alsın. Bu tələbə Putin aydınlıq gətirdi ki, bunun üçün Avrasiya Birliyi daxilində inteqrasiyalar daha da dərinləşməlidir. Hesab edirəm ki, Ermənistanın bu hərəkətləri tam fiasko ilə nəticələnəcək. Çünki heç bir ölkə zəif, dilənçi günündə olan Ermənistanla birlikdə Rusiyaya qarşı alyansda yer almaz.

Bununla Paşinyan növbəti blefini edir. Hələlik Qırğızıstanın rəhbərliyi də bununla bağlı hər hansı razılıq verməyib. Erməni mediası bu yöndə yalnız öz istəklərini yazır. Bunun baş tutacağı qətiyyən innadırıcı görünmür. Son vaxtlar Ermənistan Azərbaycanla yaxın münasibətləri olan başqa ölkələrlə də belə yaxın əməkdaşlıq cəhdləri etdi, ancaq onların heç bir faydası olmadı. Çünki Ermənistan elə bir cəzbedici ölkə deyil ki, kimsə onunla dərin əməkdaşlıqda maraqlı olsun".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Ermənistan hökuməti "Metsamor" Atom Elektrik Stansiyasının (AES) təmiri və modernləşdirilməsini öz hesabına başa çatdırmaq qərarına gəlib. Ermənistan mətbuatının verdiyi məlumata görə, parlamentdə keçirilən dinləmələr zamanı Ermənistanın Ərazi İdarəetmə və İnfrastruktur naziri Suren Papikyan son bir il ərzində atom elektrik stansiyasının təmiri üçün verilən kreditin qaytarılma vaxtının Rusiya ilə müzakirə olunduğunu açıqlayıb.**



# Rusiyadan Ermənistana qarşı daha bir jest - qazdan sonra AES-ə kredit imtinası...

## *Elşən Əliyev: "Ermənistan radiasiya mənbəyi olan həmin AES-lə dünyanı şantaj edir"*

Suren Papikyan bildirib ki, "Metsamor" AES-də işlərin başa çatmadığını əsas gətirərək Rusiyadan kreditin qaytarılma vaxtının uzadılmasını istəyiblər.

Erməni nazir deyib ki, Rusiya ilə razılığa gələ bilmədik və nəticədə kreditdən imtina etdik:"Qalan işləri Ermənistan hökuməti öz vəsaiti hesabına maliyyələşdirəcək. Rusiyadan aldığımız kreditdən imtina etsək, modernləşdirilmə işlərini yenə də Rusiyanın "Rosatom Servis" şirkəti həyata keçirəcək".

Məlumat üçün bildirək ki, Ermənistan və Rusiya hökumətləri arasında "Metsamor" AES-in ömrünün 2026-cı ilə qədər uzadılmasına dair 2014-cü ildə saziş imzalanıb. 2015-ci ildə Rusiya tərəfindən Ermənistanın 270 milyon dollar məbləğində dövlət krediti və 30 milyon dollar qrant verilməsi barədə müqavilə imzalanıb. Bu müqavilə 2019-cu il dekabrın 31-də başa çatıb. Artıq stansiyanın təmirinə 200 milyon dollardan çox vəsait xərclənib. Görünən budur ki, Rusiya Ermənistana krediti vermədiyi üçün İrəvan bu addımı atmağa məcbur olub. Rusiya bundan əvvəl Ermənistana satdığı təbii qazın qiymətində də heç bir güzəşt etmədi. Bu iki hadisə Rusiya ilə Ermənistanın münasibətlərindəki qərin çatdan xəbər verirmi?

İqtisadçı ekspert Elşən Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistan rəsmi dairələri informasiyanı yalnış verməklə, diqqəti məsələnin əsl mahiyyətindən yayındırmağa çalışır:"Əslində, kreditdən onlar imtina etməyib. Sadəcə, Rusiya uzun müddət onların istəyinə cavab verməyib. Bunun adı imtinadır. Bunun başlıca səbəbi Paşinyan faktoru ilə bağlıdır. Ermənistan indiyə qədər Rusiyanın yardımı ilə dolanıb. Bunun da müqabilində Rusiya üçün poliqon rolunu oynayıb. Paşinyan hakimiyyətə gələndən sonra həmin iqtisadi dividendlərdən yararlanmaq istəyir, ancaq həm də bunu Rusiyanın sözünə qulaq asmamaqla etməyə çalışır. Bu səbəbdən də Rusiya ona iqtisadi təzyiq rıçaqları ilə belə cavab verir.

Ermənistan hökumətinin "Metsamor" atom elektrik stansiyasının modernləşdirilməsi üçün nəzərdə tutulan 270 milyon dollar məbləğində Rusiyanın dövlət kreditindən güya imtina etməsi bu strateji obyektin bütün bölgə üçün böyük təhlükə daşıdığını bir daha təsdiq edir. Dərin iqtisadi böhran keçirən Ermənistanın rəsmi dairələrinin atom stansiyasının modernləşdirilməsini ölkə büdcəsi hesabına həyata keçirmək niyyətində olduğunu bildirməsi bu təhlükənin sovuşdurulmasına heç də xidmət etmir. "Metsamor" stansiyasının, hətta modernləşdirildiyi təqdirdə ekoloji risqlər yaratması barədə nüfuzlu beynəlxalq mərkəzlərin çoxsaylı xəbərdarlıqlarını nəzərə alsaq, bu obyektin tezliklə dayandırılması istiqamətində bütün maraqlı ölkələrin səylərinin artırılması zərurəti üzə çıxır. Ermənistan hökumətinin AES-in modernləşdirilməsi ilə bağlı Rusiyanın dövlət kreditindən "imtina" etməsi, həmçinin, iki dövlət arasında ziddiyyətlərin artırılmasının növbəti təzahürüdür. Moskvanın "məxməri inqilabçı" erməni hakimiyyəti ilə dil tapmaqda çətinlik çəkməsi artıq heç bir şübhə doğurmur. Artıq vəziyyət o həddə çatıb ki, Ermənistan radiasiya mənbəyi olan həmin AES-lə dünyanın şantaj edir. Bu məsələnin indiki zamanda aktuallaşması həm də Ermənistanın düşdüyü çətin iqtisadi vəziyyətlə bağlıdır. Belə üsulla pul əldə etmək istəyirlər. Biz aktiv şəkidə "Stop Metsamor" kampaniyası aparırdıq. Həmin kampaniyanı yenidən aktivləşdirməyə ehtiyac yaranır".

***Məhəmmədəli QƏRİBLİ***

**Dünyada, xüsusən də bir sıra beynəlxalq təşkilatlarda hələ də ikili standartların hökm sürməsi yeni misallar timsalında özünü getdikcə daha qabarıq formada büruzə verir. Məsələn, bu gün Ermənistanda əsl diktaturasayağı hakimiyyət davranışları olduğu halda dünya buna susur.**

# Paşinyan müxalifətin total məhvinə başladı, dünya isə hələ susur...



Halbuki, ermənilərin özləri Nikol Paşinyan iqtidarını ölkədə diktatura metodlarını tətbiq etməkdə itthlam edərək beynəlxalq qurumları yardıma çağırır. Amma Ermənistanda iş aparan təşkilatların çoxu, məsələn, Avropa Şurası baş verənləri görməzdən gəlir.

Erməni mediası yazır ki, bu vəziyyərdən istifadə etməyə çalışan Paşinyan iqtidarı rəqiblərini ən müxtəlif metodlarla sıradan çıxarmağa hazırlaşır. Bunun üçün Paşinyan fövqəladə vəziyyət rejimindən də indi geniş şəkildə istifadə etməyə başlayıb. Yeri gəlmişkən qeyd edək ki, Ermənistanda koronavirusa görə tətbiq edilmiş fövqəladə vəziyyət rejimi uzadılacaq. Nikol Paşinyan bunu onunla izah edib ki, koronavirusa yoluxanların sayının artması ciddi problemlər yaradır. Qeyd edək ki, son məlumatlara görə, bu ölkədə virusa yoluxanların sayı 15 minə yaxınlaşır. Pandemiyadan ölənlərin sayı isə 230-a çatmaq üzrədir. Fövqəladə vəziyyət rejimi iyunun 13-nə qədər qüvvədədir. Amma Paşinyanın açıqlamasından göründüyü kimi, hökumət onu uzatmağı düşünür. Erməni mediası yazır ki, bununla Paşinyan həm rəqiblərinin ona qarşı fəaliyyətini məhdudlaşdırır, həm də bu halda onları daha asanlıqla sıradan çıxarır. Paşinyana qarşı çıxanların sayı isə durmadan artır. Hətta Ermənistan parlamentində təmsil olunan ikinci böyük siyasi qüvvə olan müxalif "Çiçəklənən Ermənistan" partiyasının sədri, milyarder Haqik Tsarukyan da Nikol Paşinyan və onun hökumətinin istefasını tələb edib. Tsarukyan deyir ki, hazırkı hökumətə vədlərini yerinə yetirmək üçün vaxt verilib, amma onlar bunu yerinə yetirməyib:"İnvestisiya yoxdur, iqtisadiyyat inkişaf etmir, koronavirusla mübarizə uğursuz oldu". Eyni zamanda, parlamentdəki üçüncü ən böyük siyasi qüvvə olan "İşıqlı Ermənistan" partiyası da hökumətin ölkədə islahatlar aparmağa qadir olmadığını hesab edir. Paşinyanı narahat edən isə odur ki, Tsarukyan maliyyəsini ona qarşı istifadə etsə, ciddi problemlər yaşaya bilər. Bu səbəbdən o, Tsarukyanı sıradan çıxarmaq üçün hərəkətə keçib. Bundan irəli gəlir ki, Tsarukyanın məlum çıxışından sonra Ermənistan hakimiyyəti və "Çiçəklənən Ermənistan" Partiyası arasında qarşılıqlı atışmalar səngimir. "Qraparak" nəşri yazır ki, Tsarukyanın mövqeyi Paşinyana bağlı "Mənim addımım" fraksiyasının üzvlərini narahat edib. Məlumata görə, Nikol Paşinyan Tsarukyanla telefon danışığı aparıb və təhdid edib ki, addım atacağı təqdirdə hər kəsi məhv edəcək. Ancaq "Çiçəklənən Ermənistan" partiyasının üzvləri geri çəkilmir və Ermənistanın hakimiyyət nümayəndələrinə əks-zərbələr vurmağa davam edirlər.

"Çiçəklənən Ermənistan" partiyasının deputatı Artyom Tsarukyan bu fonda bildirib ki, Paşinyan öz cangüdəninin bacısının adına Kanadada 3 milyon dollarlıq ev alıb. Partiya bu qəbildən olan yeni faktların da açıqlanacağını bildirib. Məhz bu səbəbdən Paşinyan indidən milyarderin sıradan çıxarılması əməliyyatına başlayıb. Tsarukyandan başqa, Paşinyan qorxulu rəqib hesab etdiyi Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri, "Vətən" Partiyasının sədri Artur Vanetsyanı da sıradan çıxarmağı düşünür. "Qraparak" nəşri yazır ki, artıq Nikol Paşinyan müxalifəti zərərsizləşdirmək işinə başlayıb. Bu günlərdə bütün hökumət resursu hazırda konsolidasiya prosesləri gedən müxalif səhəyə qarşı yönəlib.

Nəşr yazır ki, Paşinyanın bir nömrəli hədəfi Artur Vanetsyandır və baş nazir ondan xüsusi təhlükə hiss edir. Nəşrin məlumatına görə, Ermənistan MTX-nin yeni təyin olunmuş direktoru Argişti Kərəmyanın ilk tapşırığı Vanetsyanı "zərərsizləşdirmək" olub. Nikol Paşinyan hər hansı bəhanə ilə Artur Vanetsyanı Ermənistan MTX-yə çağırmağı, həbs etməyi, daha sonra məhkəməyə qarşı bütün qanadları işə salaraq iki aylıq həbs sanksiyası almağı tapşırıb.

Paşinyan deyib ki, ən vacibi bu 2 ay ərzində onu qıfıl altında saxlamaqdır, 2 aydan sonra buraxacağıq. "Qraparak" yazır ki, Kərəmyan kadr zabit deyil və öz rəhbərinin tapşırıqlarını icra etmək məsələsində onun hər hansı "kompleks"i yoxdur.

Məlumata görə, tezliklə Artur Vanetsyan dindirilməyə dəvət olunacaq və böyük ehtimalla, həbs olunacaq. Lakin əsaslı sübutlar olmadan məhkəmədən sanksiya almaq kifayət qədər çətin olacaq. Buna rəğmən, sübutların yoxluğu Paşinyanı maraqlandırmır. "Qraparak" nəşri yazır ki, bununla inqilabdan sonrakı iki il ərzində Paşinyan hökuməti Ermənistandakı siyasi düşüncəni, ictimai və partiya həyatını məhv edərək, artıq əsl diktatura yaradır:"Siyasət və siyasi elm qanunlarına görə, hökumət və müxalifət siyasi sistemin dayaqlarıdır, siyasi ənənələri onlar formalaşdırır, düşüncə tərzi verir, proqram təklif edir, bir-birinə qarşı çıxır və tənqid edirlər. Bu siyasi sistem Konstitusiya və siyasi seçkilərin nəticələrinə əsaslanır. Dünyadakı heç bir siyasi hakimiyyət güclü, nüfuzlu və ideoloji müxalifəti xəyal etmir, ancaq bu müxalifət hökumətin iradəsindən asılı olmayaraq formalaşır, qurulur və sonda hakimiyyətə gəlir.

**Ermənistana yeni bir ideoloji, proqramlı, prinsipial müxalifətlə yeni bir dövr, dönüş lazımdır. Vəzifəsi milli diktaturanın qurulması və ya Rusiya forpostunun gücləndirilməsi yox, azad, müstəqil, demokratik Ermənistanın qurulması prioritet olan müxalifət lazımdır. Amma Paşinyan indidən bütün müxalifəti məhv edir. Dünyanın başının koronavirusa qarışdığı bir vaxtda o bunu mümkün qədər tez etməyə çalışır. Bu səbəbdən yaxın tezlikdə müxalifətin total şəkildə, əsasən, inzibati metodlar hesabına sıradan çıxarılmasına start veriləcək".**

***Nahid SALAYEV***

**Erməni mediası Nikol Paşinyanın koronavirusa yoluxduğu barədə verdiyi son iki ifadəsini müqayisə edərək, onu yalan danışmaqda ittiham edib. Qeyd edilir ki, Paşinyan öz ifadələrinin içində itib batıb və bilmədən öz yalanlarını ortaya qoyub. İyunun 1-də doğum günündə Paşinyan özünün və ailəsinin koronavirus infeksiyasına yoluxduğunu açıqladı.**

# Paşinyan və ailəsi həqiqətən yoluxmuşdularsa... erməni mediasında ifşaedici suallar...



Baş nazir daha sonra cəbhə bölgəsinə getmək istədiyini söylədi, buna görə testlər keçirildi və bütün ailə üzvlərinin yoluxduğu məlum oldu. Üstəlik, ailədə özü ilk yoluxmuş insan oldu. 8 iyunda Paşinyan sağaldığını və tam işə qayıtdığını bildirdi.

Erməni mediasının qənaətincə, bu, çox şübhəlidir, çünki koronavirus infeksiyasının gedişatı ən azı 14 gündür, baxmayaraq ki, bəzi hallarda bu, 21 günə qədər davam edə bilər. Bəs həqiqətən nə baş verib? "1. Nikol Paşinyan, Anna Akopyan və övladları, əgər həqiqətən yoluxmuşdularsa, bu, iyunun 1-dən əvvəl baş verdi, ancaq İrəvanda deyil, Şuşada.

2. Əgər düz başa düşürüksə, Paşinyan onların ailəsində ilk dəfə yoluxmuş olduğunu söylədi. Yəni bütün ailə üzvləri eyni anda yoluxurlar və eyni zamanda çox şübhəli bir sürətlə sağalırlar və bu, Paşinyanın koronavirus xəstəliyinin nağıl ola biləcəyini göstərir. Bunun səbəbini söyləmək çətindir, ancaq Paşinyanın ailəsi heç bir dəlil təqdim edə bilmir".

## *Məhəmməd Əsədullazadə: "Koronavirusdan sonra Paşinyan əleyhinə güclü etirazların baş qaldırması istisna deyil"*

"Qraparak" qəzeti Paşinyanın rezidensiyasında əlavə qüvvələr yerləşdirərək yaşayış yerinin təhlükəsizliyini gücləndirdiyini yazır: "Paşinyan bir şeydən o qədər narahatdır ki, hətta özünün və ailəsinin təhlükəsizliyini möhkəmləndirməyə çalışır. Bəlkə narahatlıq üçün əsl səbəblər var və Paşinyan çevriliş hazırlandığını və ya hakimiyyətdən uzaqlaşdırılacağını hiss edib. O, hakimiyyəti qorumaq üçün hər şeyi etməyə hazırdır və Paşinyanın "möcüzəvi şəkildə sağalması", praktiki olaraq, MTX rəhbəri Eduard Martirosyanın və polis rəisi Arman Sarkisyanın getməsi ilə üst-üstə düşüb".

## *"Çünki yalan və populizm artıq əndazədən çıxıb"*

Görünən odur ki, virusa yoluxmaq yalanı Baş naziri biabır edib. Bununla bağlı ifşaedici faktların ortaya çıxması onu göstərir ki, Paşinyan və ailəsi, əslində, virusa yoluxmayıb. Onun bu şounu yaratmaqda müəyyən məqsədləri olub.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə bununla bağlı bir sıra məqamlara toxundu. Onun fikrincə, N.Paşinyan özünün koronavirusa tutulduğunu qeyd etməklə, həm özünü, həm də Ermənistan ictimaiyyətini ucuz tutdu: "Ermənistan vətəndaşları bu iki il ərzində artıq Paşinyanın populist və yalan danışdığının fərqindədirlər. Onun həqiqət dediyi sözlər bir çox halda ermənilərdə yalan kimi qəbul edilir. Azərbaycan ədəbiyyatında "Yalançı çoban" nağılını Paşinyana misal göstərmək olar. Adam koronavirusa tutulsa da, xalq onun yalan danışdığını zənn edir. Hesab edirəm ki, Paşinyanda da virusun simptomları ola bilər. Ancaq bu şəxs görüşlər keçirir və işinin başındadır. Ötən gün eks-prezident Levon Ter-Petrosyanla görüş keçirib. Belə olan təqdirdə Paşinyanın dedikləri cəmiyyət tərəfindən real qəbul edilmir. Onun iki il hakimiyyətdə olmasına baxmayaraq, apardığı siyasət ölkədə heç bir inkişafa gətirib çıxarmayıb. Yalnız populist bəyanatlarla manipulyasiya edib. Hesab edirəm ki, koronavirusdan sonra Paşinyan əleyhinə güclü etirazların baş qaldırması istisna deyil. Çünki yalan və populizm artıq əndazədən çıxıb. Bu isə onun üçün baha başa gələcək".

***Vidadi ORDAHALLI***

**Ermənistanın Vatikandakı keçmiş səfiri Mikael Minasyan baş nazir Nikol Paşinyan barəsində ifşaedici çıxışlarından sonra istefalar başlayıb. Minasyan Paşinyanı siqaret, brilyant və silah qaçaqmalçılığında günahlandırıb, bu yöndə sensasion məlumatlar açıqlayıb.**

# Vatikandakı keçmiş səfirin Paşinyana qarşı brilyant, siqaret qaçaqmalçılığı ittihamlarından sonra ilk "iri istefalar" başladı...



Minasyanın sözlərinə görə, Paşinyan mayın 23-də özünün hərbi müşaviri, Ermənistan Müdafiə Nazirliyinin Kəşfiyyat idarəsinin keçmiş rəisi Arşak Karapetyanı gizlicə Rusiyanın Voronej şəhərinə ezam edib:"Məqsəd Nikol Paşinyan və onun ailəsi ilə bağlı ən iri qalmaqalı yatırmaqda kömək etməkdir. General Karapetyan Voronejdə Rusiya xüsusi xidmət orqanlarının əməkdaşları ilə danışıqlar aparıb, Paşinyan və ailəsi barəsində tütün qaçaqmalçılığı üzrə cinayət işi qaldırılmamasını xahiş edib".

Bunun ardınca Ermənistan Dövlət Gəlirləri Komitəsinin (DGK) sədri David Ananyan istefa verib.

Erməni KİV-nin verdiyi məlumata görə, o, istefa ərizəsini baş nazir Nikol Paşinyana təqdim edib:"Mediada yayılan şayiələrə son qoymaq üçün bildirmək istəyirəm ki, işdən azad olunmaq barədə ərizəmi təqdim etdim". Qeyd edək ki, David Ananyan DGK-nın rəhbəri vəzifəsinə 18 may 2018-ci ildə təyin edilib. O, keçmiş baş nazir Karen Karapetyanın biznesdən gətirdiyi mütəxəssislərdən biridir. Erməni KİV-i qeyd edir ki, Ananyanın Ermənistan Dövlət Gəlirləri Komitəsinin rəhbəri vəzifəsindən istefası çoxları üçün sürpriz olub. Maraqlıdır ki, hər şey haqqında dərhal açıqlama verməkdən çəkinməyən baş nazir Nikol Paşinyan bu istefaya hələ münasibət bildirməyib.

## *Zamin Axundlu: "Bu hal yeni Ermənistan hakimiyyətinin də korrupsioner, cinayətkar mahiyyətli olmasına qəti şübhə yeri qoymur"*

Yerli media isə Ananyanın qərarını respublikadakı son siqaret qaçaqmalçılığı ilə əlaqələndirir. Aprelin sonlarında Federal Təhlükəsizlik Xidməti gömrük və sərhəd xidmətləri ilə birlikdə Krasnodarda Ermənistan Fövqəladə Hallar Nazirliyinin 40 ton siqareti tranzit olaraq daşıdığı bildirilən hava gəmisini saxlamışdı. Sonra mediada Voronejdə böyük partiya erməni siqaretinin tutulması barədə məlumat yayıldı. Paşinyanın siyasi opponentləri iddia edirlər ki, Ermənistan hökuməti başçısının ətrafında olan bəzi şəxslər "istehlak malları" adı altında siqaret qaçaqmalçılığında iştirak ediblər. Bu fakt Paşinyan hakimiyyətinin həm də korrupsioner, qaçaqmalçı mahiyyətini ortaya qoymuş olurmu?

Politoloq Zamin Axundlu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məsələ Ermənistan gündəmində müzakirə olunurdu:"İttihamları səsləndirən şəxs isə Ermənistanın Vatikandakı keçmiş səfiri idi. O, konkret faktlar əsasında Paşinyanın siqaret və silah qaçaqmalçılığı ilə məşğul olduğunu bəyan etmişdi. Əslində, burada təəccüblü olan nəsə yoxdur. Çünki Ermənistandakı hakimiyyətlərin hamısı belə cinayətkar bizneslərin hesabına varlanıblar. Bunu elə indiki hakimiyyətin özü də sübut edir ki, ölkəni indiyə kimi idarə edənlər cinayətkar olub. Az qala 20 il ölkəni idarə edən adamların taleyinə baxın. Robert Köçəryan türmədə cəza çəkir, digər eks prezident Serj Sarkisyana cinayət işi qaldırılıb, ölkədən çıxışına qadağa qoyulub. Deməli, Ermənistan indiyə kimi cinayətkar mahiyyətli adamlar tərəfindən idarə edilib. Bunu biz bilirik, amma hazırkı erməni hakimiyyəti məlumatı öz əməlləri ilə təsdiq edir. İndiki hakimiyyətin də sələflərinin yolunu getdiyinə şübhə yeri qalmır. Bu istefa bir daha sübut etdi ki, Paşinyanın deyilən qaçaqmalçılıqda əli var. Ola bilər, Paşinyan yüksək çinli məmuru istefaya məcbur edib ki, diqqəti özündən yayındırsın. Çox güman ki, bir müddət sonra elə bu məmurun özü açıqlama verib, bütün detallara aydınlıq gətirəcək. Analoji hadisələri biz Paşinyan hakimiyyəti dönəmində artıq görmüşük. Bu hal yeni Ermənistan hakimiyyətinin də korrupsioner, cinayətkar mahiyyətli olmasına qəti şübhə yeri qoymur".

***Məhəmmədəli QƏRİBLİ***

**Təsir dairəsi hələ də genişlənməkdə olan koronavirus dünya iqtisadiyyatına zərbə vurmaqda davam edir. Aparılan hesablamalara əsasən, dünya iqtisadiyyatı cari ldə koronavirus səbəbindən 5 faizdən çox azalacaq. Bu durum maliyyə sektoruna da təsir edərək, burada valyutalar nisbətinə də təsirini artırır.**

# Dünya dövlətləri dollar ehtiyatlarını qızılla əvəzləməyə başladı - Azərbaycanda da proses gözlənilən sayılır...

Məsələn, son dövrlərdə dolların mövqeyinin zəifləməsi fonunda qızılın əhəmiyyətli dərəcədə qiymət artımı müşahidə edilir. Belə ki, son 3 ayda dünya bazarlarında qızılın qiymətində bahalaşma olub və qızılın 1 unsiyası, yəni 31 qramı 1400 dollardan 1700 dollaradək qalxıb.

Digər tərəfdən, ABŞ iqtisadiyyatında qeydə alınanlar dollara inamı sarsıdaraq qızıla marağı daha da artırır. Məsələ burasındadır ki, ABŞ-ın Milli İqtisadi Tədqiqatlar Bürosu COVID-19 pandemiyası səbəbindən ABŞ iqtisadiyyatının resessiya mərhələsinə daxil olduğunu açıqlayıb. Hesabatın müəllifləri koronavirusun yayılması səbəbindən iş yerlərinin və istehlak tələbatının azalması ilə ABŞ iqtisadiyyatı tarixinin 2009-cu ilin iyun ayından başlayaraq 128 ay davam etmiş ən uzunmüddətli iqtisadi artım epoxasına son qoyulduğunu qeyd ediblər. Pandemiya mərhələsinin başlanğıcından bəri Amerika Birləşmiş Ştatlarında 42 milyondan çox insan iş yerini itirib və işsizlik müavinəti almaq üçün müraciət edib. Ştatların administrasiyaları tərəfindən koronavirusa görə tətbiq olunan məhdudlaşdırıcı tədbirlər səbəbindən minlərlə müəssisə öz fəaliyyətlərini dayandırmalı olub. Iqtisadi çətinliyin hələ bir neçə il davam etməsi proqnozlaşdırılır. Bu durumda dollar ehtiyatlarının sürətlə qızıla dəyişilməsi prosesi də özünü qabarıq göstərir. Artıq qızıla sərmayə qoyan birja fondlarının aktivləri tarixdə ilk dəfə olaraq 100 milyon unsiya həddini aşaraq 100,15 milyon unsiya səviyyəsinə və ya 3120 tona çatıb. Sözügedən fondların aktivləri təkcə may ayında 417 ton, ilin əvvəlindən isə 536 ton artıb. Proses bu səpkidə gedəcəyi təqdirdə qızıla tələbin daha da artması və onun qiymət artımının davam etməsi proqnozlaşdırılır. Çünki qızıla tələbat qlobal miqyasda artır. Dünya Qızıl Şurası da bildirir ki, yeni növ koronavirusun yaratdığı qeyri-müəyyənliklər qızıla tələbatı daha çox artırır. Bu ilin ilk 5 ayında da qızıl əsaslı investisiya fondlarına son 4 ildə ən güclü axın yaşanıb. Təkcə birinci rübdə qızıla tələbat ötən ilin eyni dövrü ilə müqayisədə 1 faiz artaraq təqribən 1084 ton olub. Qızılın unsiya qiyməti isə 2012-ci ilin dekabrından bu yana ən yüksək səviyyəyə çatıb. Qlobal qızıl tələbatı bu dövrdə 55 milyard dollar səviyyəsinə çatıb. Dollar ifadəsində isə 2013-cü ilin ikinci rübündən bəri ən yüksək səviyyəyə qalxıb.



Bütün bunlar bir daha göstərir ki, koronavirus pandemiyası dövründə qızıl dünyada investorlar üçün ən etibarlı vasitəyə çevrilib. Baş verənlər Azərbaycanda da diqqətlə izlənir. Ölkəmizdə də aydın görünür ki, koronavirus pandemiyası dövründə dünya iqtisadiyyatında hansı proseslərin baş verəcəyi və bunun nə vaxtadək davam edəcəyi aydın deyil. Ona görə də Azərbaycan da qızıla investisayısını artırır. Ölkəmizdə yalnız qızıl məmulatlarının qiymətində hansısa ciddi bahalaşma qeydə alınmır. Səbəb də odur ki, son zamanlar toyların olmaması tələbi xeyli dərəcədə zəiflədib. Karantin tədbirlərinə görə satış yerlərinin qapalı olması, toyların nə vaxt başlayacağının bilinməməsi qızıla olan tələbatı xeyli azaldıb. Bundan əlavə, pandemiya dövründə təkcə ölkəmizdə deyil, bütün dünyada insanların alıcılıq qabiliyyəti aşağı düşüb. COVID-19 tədbirləri və qızılın baha qiymətləri zərgərlik məmulatlarına tələbatı azaldıb. Belə ki, zərgərlik məmulatlarına tələbat qlobal miqyasda 39 faiz azalıb. Dünyanın ən böyük zərgərlik bazarı olan Çində isə 65 faiz nisbətində azalma olub. Ona görə də Azərbaycanda qızıldan hazırlanan məmulatların qiymətində kəskin artımın olması ehtimalı çox aşağıdır. Amma xam qızılla bağlı vəziyyət fərqlidir. İqtisadçı-ekspert Rəşad Həsənov da bu xüsusda qeyd edir ki, Azərbaycan bazarında qızılın qiymətinin formalaşmasında iki əsas faktor var:"Birincisi xam qızılın maya dəyəri, ikincisi isə qızıla olan tələbdir. Xam qızılın qiyməti ilə zinət əşyası kimi satılan qızılın qiyməti arasında kəskin fərqlər olur. Son dövrlərdə, xüsusilə pandemiya dövründə dünya bazarında qızılın qiyməti əhəmiyyətli səviyyədə artıb. Digər istiqamətlərdə risqlər artdığı üçün investorlar qızıla yönəlirlər. Azərbaycanda pandemiya ilə bağlı məhdudiyyətlərin tətbiq olunması zərgərlik məhsullarına tələbi azaldıb və bu da qiymətin aşağı düşməsinə şərait yaradır. Amma digər tərəfdən, qızılın maya dəyərinin artması qiymətin bahalaşmasına şərait yaradır. Ona görə də bazarda qiymətlər bu iki istiqamətin ortasında formalaşır". Indilikdə ölkəmizdə daha çox külçə qızlın bahalaşması müşahidə edilir. Dövlət də dollar ehtiyatlarının bir qismini qızıla çevirir. Hətta ölkəmizdə bəzi fərdi və institusional investorlar da öz portfellərini qızıl vasitəsilə şaxələndirir, qoruyur. Qeyri-müəyyən geosiyasi vəziyyət, qızılın digər aktiv növlərinə, o cümlədən daşınmaz əmlaka və qiymətli kağızlara nəzərən etbarlı olması və qızıl hasalatının son illərə nisbətən azalması onun qiymətinin artacağını proqnozlaşdırmağa əsas verir. Bunu Azərbaycanda da nəzərə alırlar. Hesab edilir ki, qlobal neft və valyuta bazarlarındakı qeyri-müəyyənlik investorların qızıla marağının bundan sonra da artmasına səbəb olacaq. Bu mənada, Azərbaycanın valyuta ehtiyatlarının tərkibində qızılın payını daha da artırması tamamilə gözlənilən sayılır.

***Ramil QULİYEV***

**Azərbaycan ötən əsrin axırlarında ikinci dəfə dövlət müstəqilliyini bərpa etdikdən sonra sosial-iqtisadi sahədə innovativ dəyişikliklər aparılmış, cəmiyyətin yeni konturları müəyyən edilmiş, habelə ölkəmiz perspektivli dövlət siyasəti aparılması yolunu tutmuşdur.**

# Daim inkişafda olan Naxçıvan sənayesi...



Artıq deyə bilərik ki, Azərbaycan iqtisadiyyatında modernləşmənin daha da sürətləndirilməsi üçün əlverişli şərait yaranmışdır. Ölkədə makroiqtisadi sabitliyin yaranması dinamik inkişafı təmin etmişdir. Dinamik inkişaf isə iqtisadiyyatın əsas və həlledici sahəsi olan sənaye sahəsində də özünü biruzə vermişdir.

Ölkədə olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da ixracyönümlü malların istehsalının artırılması sahəsində çox mühüm işlər görülmüşdür. Elə bunun nəticəsidir ki, 2007-ci ildə respublikada rəqabətqabiliyyətli mallar istehsalı 18,5 dəfəlik inkişaf tempinə malik olmuşdur.

Ümumiyyətlə, muxtar respublika iqtisadiyyatının dinamik inkişafı sənayenin inkişafına da öz müsbət təsirini göstərməkdədir. Əhalinin yerli sənaye məhsullarına tələbatı artdıqca çeşidi də getdikcə genişlənir. Qeyd etmək lazımdır ki, muxtar respublikada fəaliyyət göstərən sənaye sahələri içərisində emal sənayesi özünün tutduğu yerə və xüsusi çəkisinə görə fərqlənir. Belə ki, 2008-ci ildə bütövlükdə Naxçıvan MR-də istehsal olunan ümumi sənaye məhsulunun 82,4 faizi məhz emal sənayesinin payına düşmüşdür. Emal sənayesində məhsulun çeşidi də artmışdır. 2008-ci ildə muxtar respublikanın sənaye sahəsində istehsal olunan 192 adda məhsulun 60-dan çoxu və ya 30 faizi məhz emal sənayesinin payına düşmüşdür.

Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının əsas və həlledici sahəsi, lokomotivi sayılan sənaye 1996-cı ildən başlayaraq, ölkədə makroiqtisadi sabitlik əldə olunduqdan sonra, özünün əsl inkişaf mərhələsinə qədəm qoymuşdur.

XX əsrin 90-cı illərinin əvvəllərində keçmiş ittifaq respublikaları ilə iqtisadi əlaqələrin qırılması və məlum Qarabağ münaqişəsi ilə əlaqədar olaraq demək olar ki, muxtar respublikada bütün sənaye müəssisələri öz fəaliyyətini dayandırmışdır. Tam blokada vəziyyətinə düşən Naxçıvan iqtisadiyyatını dərin böhrandan çıxarmaq, onun aparıcı sahəsi olan sənayeni bərpa etmək, yeni sənaye müəssisələri yaratmaq və modernləşdirmək missiyası 1995-ci ilin dekabr ayında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri seçilən Vasif Talıbovun üzərinə düşmüşdür.

Aparılan təhlillər göstərir ki, keçən 20 il ərzində muxtar respublikada əsas makroiqtisadi göstərici olan ümumi daxili məhsul istehsalı 1995-ci illə müqayisədə 2015-ci ildə 56,4 dəfə artaraq təqribən 2 milyard 467 milyon manat təşkil etmişdir. Hər bir nəfərə düşən ümumi daxili məhsul istehsalı 2015-ci ildə 5581 manat təşkil etməklə son 20 il ərzində 42,3 dəfə artmışdır.

Ümumiyyətlə, ölkədə olduğu kimi muxtar respublikamızda da Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf strategiyasının reallaşdırılması istiqamətində uğurla həyata keçirilən irimiqyaslı tədbirlər öz nəticələrinin pozitivliyi ilə seçilir.

Məlum olduğu kimi, 1995-ci ilin dekabr ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Vasif Talıbov ulu öndərin strateji inkişaf xəttinə sadiq qalaraq tam blokada şəraitində yaşayan muxtar respublikanı tam inkişaf müstəvisinə çıxarılmasının konkret proqramını verdi. Və keçən 25 il ərzində muxtar respublikada nəyə qadir olduğunu öz əməyi və gərgin işi ilə sübut etdi. Bunu əsas makroiqtisadi göstərici olan Ümumi Daxili Məhsul istehsalına dair tərtib olunmuş aşağıdakı cədvəldən daha aydın görmək olar:

Naxçıvan Muxtar Respublikasında ümumi daxili məhsulun dinamikası (1995-2019-cu illər)

Müqayisə dövrü
Göstəricilər 1995 2008 2014 2019
Analoji nisbət
1995-ci ilə nisbətən 2019-cu ildə
Ümumi Daxili Məhsulun həcmi , min manatla
43721,7 795763,6
2391004,2 2839650,0
64,9 dəfə
Adambaşına düşən Ümumi Daxili Məhsulun həcmi, min manatla
136,6 2057,3 5465,2
6201,5 45,6 dəfə

Statistik məlumatların təhlili göstərir ki, son 25 ildə ÜDM inkişaf dinamikası yüksələn xətlə inkişaf etmişdir. Belə ki, ÜDM istehsalı 2008-ci ildə 1995-ci ilə nisbətən 18,2 dəfə, 2014-cü ildə 54,7 dəfə, 2019-cu ildə isə 64,9 dəfə artmışdır. Son 25 ildə adambaşına düşən ÜDM istehsalı da özünün sürətli inkişafını təmin etmişdir. Belə ki, 2008-ci ildə 1995-ci ilə nisbətən adambaşına ÜDM həcmi 15,0 dəfə, 2014-cü ildə 40,0 dəfə, 2019-cu ildə isə 45,6 dəfə artmışdır.

İqtisadiyyatın sahələri içərisində sənayenin həlledici sahə olduğu nəzərə alınaraq muxtar respublikada çox güclü sənaye siyasəti yeridilərək, yeni texnologiyalar əsasında yaradılan sənaye müəssisələrinin sayı xeyli artmışdır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin qayğısı nəticəsində son 25 il ərzində sənaye müəssisələrinin sayı 7,9 dəfə artaraq 442-ni ötüb keçmişdir. Qeyd etmək lazımdır ki, 1995-ci ildə muxtar respublikada fəaliyyət göstərən sənaye müəssisələrinin sayı cəmi 56 vahid təşkil etmişdir.

Bir məsələni xüsusi olaraq qeyd etmək lazımdır ki, muxtar respublikada açılan yeni sənaye müəssisələri əsasən xarici investisiyaları cəlb etməklə və dünyanın ən yeni texnologiyaları əsasında yaradılan sənaye müəssisələri keyfiyyətli məhsul istehsal etsin. Burada əsas məqsəd rəqabətədavamlı məhsullar istehsal etmək, dünya bazarında başqa dövlətlərin buraxdığı məhsullarla rəqabətə girmək və qalib gəlmək məsələsi istehsalçıların qarşısında bir vəzifə kimi qoyulmuşdur.

Təbii ki, 2014-cü il Azərbaycanda "Sənaye ili" elan edilməsi və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" bütövlükdə Azərbaycanda olduğu kimi onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da sənayenin sürətlə inkişafına təkan vermişdir. Nəticədə sənaye müəssisələrinin say tərkibinin artması eyni zamanda muxtar respublikada sənaye məhsulunun artmasına gətirib çıxarmışdır. Əgər 1995-ci ildə sənaye məhsulu istehsalı muxtar respublikada cəmi 9,1 milyon manat təşkil edirdisə bu rəqəm 2015-ci ildə 917,0 milyon manata, 2019-cu ildə isə 1 milyard 14 milyon manata çatdırılmışdır. Beləliklə, sənaye sahəsində görülən tədbirlər öz bəhrəsini vermiş və nəticədə son 25 il ərzində sənaye məhsulu istehsalı 113 dəfəyə yaxın artmışdır.

Ümumiyyətlə rəqabət qabiliyyətli sənaye məhsulu istehsalının artması muxtar respublikanın ixrac potensialında öz yerini daha da möhkəmləndirmişdir. Təkcə bir faktı demək kifayətdir ki, 2019-cu ildə muxtar respublikada ixrac potensialı cəmi 425,5 milyon ABŞ dolları təşkil etmişdir ki, bunun da 323,3 milyon ABŞ dolları sənaye məhsulunun payına düşmüşdür.

Yuxarıda deyildiyi kimi muxtar respublikamızda 2019-cu ildə 1 milyard 15 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir. İstehsal olunmuş sənaye məhsulunun 96 faizindən çoxu emal sənayesinin payına düşür. Qeyd etmək lazımdır ki, əhalinin ərzaq mallarına olan tələbatının səmərəli şəkildə ödənilməsi üçün nəinki aqrar sektorda, habelə emal sənayesində də innovasiyalı istehsal prosesinin reallaşdırılması vacib məsələlərdən biridir. Bu baxımdan məsələyə yanaşdıqda göstərmək lazımdır ki, son illərdə Naxçıvan Muxtar Respublikası sənayesində innovasiya prosesləri güclənmiş və yeni məhsulların istehsalı öz sürətini getdikcə artırmışdır.

Naxçıvan MR-da yeni emal sənaye müəssisələrinin yaradılması əhalinin istehlakında mühüm yer tutan qida məhsullarının yerli istehsal hesabına təmin olunmasına və idxaldan imtina olunmasına gətirib çıxarmışdı. Məhz bu səbəbdən də son illərdə muxtar respublikada idxalın həcmi xeyli azalmışdır.

Keçən əsrin 90-cı illərində, demək olar ki, qida məhsullarının əsas hissəsi xaricdən idxal olunurdu. Lakin Naxçıvan MR Ali Məclisinin bu istiqamətdə gördüyü məqsədyönlü tədbirlər nəticəsində bir çox qida məhsullarının istehsalı təşkil olunmuşdur.

Statistik materiallar əsasında aparılan təhlillər göstərir ki, son illərdə respublikamızda iqtisadi potensialın regional baxımdan hərtərəfli inkişafının təmin edilməsi və yekun nəticədə iqtisadiyyatın, xüsusilə də qeyri-neft sektorunun dinamik inkişafına yönəldilmiş tədbirlərin əlaqələndirilmiş şəkildə reallaşdırılması əsasında regionların müxtəlif makroiqtisadi göstəriciləri üzrə xüsusi çəkisinin artması müşayət edilmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və ölkə başçısı İlham Əliyev tərəfindən davam etdirilən iqtisadi müstəqillik strategiyasına uyğun olaraq aparılan struktur islahatları, iqtisadiyyatın beynəlxalq iqtisadi münasibətlərə və təsərrüfat əlaqələrinə uğurla inteqrasiyası Naxçıvan Muxtar Respublikasında da sosial-iqtisadi inkişafın dinamik artımına səbəb olmuş, bütün iqtisadi fəaliyyət sahələrinin inkişafına etibarlı zəmin yaratmışdır.

Naxçıvan Muxtar Respublikasında müasir sənaye müəssisələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, məhsul istehsalının dinamik artımı qorunub saxlanmışdır.

2109-cu ildə muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 84 layihə üzrə istehsal və xidmət obyektləri yaradılmış, 63 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması davam etdirilmişdir.

Sənayenin inkişafı məqsədilə bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 2019-cu ildə 10,9 milyon manat kredit verilmişdir ki,bu da 2018-ci illə müqayisədə 2,1 dəfə çoxdur.

Bir məsələni xüsusi olaraq vurğulamaq lazımdır ki,bu gün ölkə iqtisadiyyatının sürətli inkişafını təmin etmək üçün sənaye parkları,sənaye məhəllələri,aqro parklar və.s istehsal sahələri yaradılır ki,burada dövlət dəstəyi də mühüm rol oynayır.

Bu baxımdan da qeyd etmək lazımdır ki,Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 13 sentyabr tarixli fərmanına əsasən Şərur Sənaye Məhəlləsinin yaradılması və bu məqsədlə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə ilkin olaraq 5 milyon manat vəsaitin ayrılması sənayenin inkişafına yeni imkanlar yaradacaqdır.

Ölkəmiz öz müstəqilliyini əldə etdikdən sonra mülkiyyət çoxnövçülüyü yaranmış və özəl sektor inkişaf etməyə başlamışdır. Bu özünü regionlarda da biruzə vermişdir. Naxçıvan Muxtar Respublika iqtisadiyyatının başqa sahələrində olduğu kimi sənaye sahəsində də qeyri-dövlət sektorunun payı ildən-ilə artır. Belə ki, 2019-cu ildə muxtar respublikada sənaye məhsulu istehsalının payı dövlət sektorunda 5,9 faiz,özəl sektorda isə 94,1 faiz təşkil etmişdir. Bu da ölkənin digər iqtisadi rayonları ilə müqayisədə ən yüksək göstəricidir.

Aparılan təhlillər göstərir ki, Naxçıvan Muxtar Respublikasında aparılan sənaye siyasəti, yeni texnologiyalar əsasında yaradılan sənaye müəssisələri və istehsal olunan sənaye məhsulları gələcək illərdə də özünün sürətli inkişafını və ixrac potensialının artmasını davam etdirəcəkdir.

2020-ci ilin I rübünün nəticələri də bunu deməyə əsas verir. Belə ki, bütün dünyanı bürüyən pandemiyanın tüğyan etdiyi bir dövrdə də Naxçıvan iqtisadiyyatının inkişafı davam etmişdir.Naxçıvan Muxtar Respublikasının bütün makroiqtisadi göstəriciləri,o cümlədən 2019-cu ilə nisbətən 2020-ci ildə sənaye məhsulları istehsalı 1 faiz, kənd təsərrüfatı məhsulu istehsalı 2,5 faiz, ümumi daxili məhsul istehsalı 0.8 faiz,nəqliyyat sektorunda yük daşımalar 0,8 faiz,informasiya və rabitə xidmətləri 2,1 faiz,xarici ticarət dövriyyəsi 7,6 faiz artmışdır.

***Nazim ƏHMƏDOV***
***İqtisad elmləri doktoru, professor***

# "Məni gənclər həmişə Anarın müdafiəçisi kimi qınayırlar"

*Azər Abdulla: "Yazıçı"nı çap etmək üçün maliyyə məsələsində həddindən çox əziyyət çəkirəm"*

**Şair, nasir, publisist, 1986-cı ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü, 1977-ci ildən Azərbaycan Jurnalistlər İttifaqının üzvü, filologiya elmləri namizədi Azər Abdullanın 80 yaşı tamam olur. Özünəməxsus qələm hadisələrini oxucuların xüsusi dəyərləndirdiyi məlumdur.**



"Bir durna qatarıyıq", "Gedirəm gündoğana", "Səni gözləyirəm", "Bəyaz çiçəklər", "Oyun", "Qəmərlidən keçən Qatar", "Onlar qəmli idi", "Kəpənək bayramı" və s. kitabları ilə qələm hadisələri yaradan Azər Abdulla ilə 80 illik yubileyi ərəfəsində görüşüb ondan müsahibə götürdüm.

**- Eşidəndə ki, Sizin 80 yaşınız tamam olur, sözün düzü, buna inanmağım gəlmədi. Çünki Siz ruhunda, içində, simasında gənclik ovqatını yaşadan adamsınız. Necə oldu ki, gənclik ruhunu, ovqatını ömrün səksəninə qədər daşıya bildiniz?**

- Dedikləriniz səmimidirsə, bu mənim xidmətim deyil, Tanrının verdiyi paydır və genlə bağlı olan məsələdir. Yəni adam hardasa özünün həyatda etdikləri ilə bir sevinməlidir, bir qürur duymalıdır. Əgər belədirsə, buna görə Tanrıya borcluyam və ona şükür etməliyəm.

**- Tanrıya həmişə inanmısınız, yoxsa bu, yaşla bağlıdır? Nəzərə alsaq ki, Sizin gəncliyiniz, yaradıcılığa başladığınız dövr bolşevizm dönəminə düşüb. O illərdə də Allah sevgisini özünüzdə hiss etmisinizmi?**

- O dövrləri xatırlayanda, yadıma gəlir ki, bizim kənddə üç-dörd nəfər namaz qılırdı. Onlardan biri ana nənəm və anam idi. Namaz qılmasına baxmayaraq, anam kommunist idi. Atam isə sırf o ideologiyaya inanan, onun uğrunda döyüşən qatı kommunist olub. Nənəm və anam namaz qılanda, dua edəndə baxırdım və bunun səbəbini soruşurdum. Bilirsiniz, Allaha inam o qədər həssas, o qədər mürəkkəb məsələdir ki… Elə adamlar var, Allahı gördükləri kimi, təsəvvür etdikləri kimi sübut etmək istəyirlər. Mən demirəm ki, Allahsızam, Allaha inanmıram. Belə bir aqnostik sözü var - yarı inam, yarı inamsızlıq məsələsi. Namaz qılmıram, amma yaşa dolduqca, inamım artır. Kainatı, insanları, varlığı müşahidə etdikcə, hiss edirsən ki, bunları idarə edən qüvvə var. Mən son vaxtlar, bilirsiniz, nə üçün daha çox inanmağa başlamışam? İnsanların danışa bilməsi məndə həmişə təəccüb doğurub ki, necə olur ki, insan danışır, bu sözləri özüm deyirəm, yoxsa, bunu kimsə bizə diqtə edir, yaxud da siz danışanda. Biz elə bilirik özümüz danışırıq, amma bəlkə bunu kimsə bizə diqtə edir. Bu çox mürəkkəb məsələdir. Sözün qısası, getdikcə məndə Allaha inam daha çox artmağa başlayır, inamsızlıqdan inamım daha çoxdur. Həyatı, dünyanı görürəm, onun quruluşu, idarə olunması, harmoniyası mənə möcüzə kimi gəlir. Mütləq bunları idarə edən bir varlıq, qüvvə var və biz də onun bir hissəsiyik.

**- Azər müəllim, səhv etmirəmsə, ilk kitabınız 1969-cu ildə çap olunub… Ədəbiyyata şeirlə gəlmisiniz.**

- Bəli, "Bir durna qatarıyıq" şeirlər kitabım çıxıb. Yəqin xəbəriniz var, o vaxt ədəbiyyata gəlmək çox çətin məsələ idi. Redaktorlar, senzura, "Qlavlit" vardı. Hər adam kitab çıxara bilmirdi.

**- Özünüz də dediniz ki, ədəbiyyata gəlmək çox çətin məsələ idi. Siz ədəbiyyata gələrkən, Sizə yol, cığır açanlar çox oldu, yoxsa mane olan, bədxahlıq edib, badalaq gələnlər?**

- Qısaca desəm, hər ikisi olub. Mənim bəxtim onda gətirib ki, həyatım boyu redaktorların çox proqressiv, çox geniş dünyagörüşlü, çox obyektiv, gəlişmiş adamlar olublar. 20 il "Qobustan" jurnalında işləmişəm, Anar kimi demokratik, dünyagörüşü geniş, daha çox düzgünlüyün, həqiqətin tərəfində olan adamla işləmişəm. "Oğuz eli"ndə Xalq yazıçısı Mövlud Süleymanlı ilə işlədim. O da xarakter, yaradıcılıq etibarilə çox sərbəst meylli adam idi. Sonra Vaqif Səmədoğlu ilə 4 il işlədik. Ömrümün ən gözəl illəri "Qobustan"da və "Oğuz eli"ndə Vaqif Səmədoğlu ilə keçib. Bu olar, bu olmaz, söhbəti yox idi. Hər bir azad sözə, fikrə çox geniş ürəklə baxırdılar.

**- Əslində, bəzən deyirlər ki, o cür istedadlı adamlarda qısqanclıqlar, kaprizlər, qarşı tərəfi anlamamaq kimi problemlər olur. Siz heç bununla rastlaşmadınız?**

- Mən bayaq niyə Anarın adını çəkdim? Çox adam elə bilər ki, o, nüfuzlu adamdır, onun adını ona görə çəkirəm. Amma ətrafımda olan adamlar da yaxşı bilirlər ki, xaraktercə yarınan adam deyiləm. Sizə bir hadisə danışım: Bütün dünyanın qeyri-adi yüksək sənət əsəri kimi qəbul etdiyi gözəl bir qadın portreti olan "Cakonda" - "Mona Liza" əsəri haqqında çox düşündüm və gördüm ki, bu əsər çox aşırı şəkildə, həddindən artıq təriflənir, təbliğ olunur. Bu mövzuda bir yazı yazdım. Yazını əvvəlcə şöbə müdirlərinə verdim və onların hamısı mənim əleyhimə çıxdılar ki, sən dünyanın qəbul etdiyi əsər haqqında belə yazmısan. Mən onun haqqında yazılanları izlədim, dünya sənətşünaslarının, akademiklərin, mütəxəssislərin bu əsər haqqında dedikləri fikirlərlə tanış oldum. Gördüm ki, akademik olanda nə olar, amma bu əsər haqqında çox şişirdilmiş sözlər deyiblər. Bir var bunun həqiq qiymətini verəsən, bir də var ki, ifratçılığa varasan. Öz məntiqimə görə "Cakonda" tablosunu təhlil etdim və göstərdim ki, filan məsələlərdə yanaşmalar düzgün deyil. Mən də şöbə müdirlərinə dedim ki, siz yazını Anara təqdim edin, verməz də verməz. Mən Anarın obyektivliyini orada görüm, səhv etmirəmsə, onu redaktə etmədən çap etdi. Mən hekayələrimi yazanda redaktəni, yaşıdım olsa da, Mövlud Süleymanlıdan öyrənmişəm, Anar müəllimdən öyrəndiklərim daha çox olub. Bunları deməsəm, əzab çəkərəm. Yəni sözümün canı odur ki, o məqaləni Anar müəllim rahatca "Qobustan"da çap etdi. Baxmayaraq ki, həmin dövrdə onu heç bir mətbuat orqanı çap etməzdi.

**- Azər müəllim, yaradıcılığınızda poeziya, publisistika, nasirlik, jurnalistika ilə yanaşı, əlavə bir yaradıcılıq keyfiyyətiniz də var ki, bəlkə də oxucularımızın çoxunun bundan xəbəri yoxdur. Bu da rəssamlığınızdır. Bunu bir yaradıcı təfəkkürdə necə yerləşdirmək olur? Düzdür, həm bizdə, həm də dünyada elə mütəfəkkirlər, yazıçı və şairlər var ki, onlar da rəssamlıqla məşğul olublar, yaxud rəssamlar şeir, nəsr yazıb. Sizə yazarlıqla rəssamlığı, bir az obrazlı desəm, qələmlə fırçanı ortaq məxrəcə gətirmək hansı çətinliklərə başa gəlir?**

- Bu çox yaxşı sualdır. Müsahibənin əvvəlində düşünürdüm ki, söhbətimiz alınmayacaq, amma indi deyəsən söhbətimiz yavaş-yavaş öz axarına düşür (gülür). Doğru deyirsiniz, dünya ədəbiyyatında belə hallar çox olub. Özümü onlarla müqayisə etmək istəməzdim. Bəli, çox dahilər, mütəfəkkirlər olub ki, onların yaradıcılıqlarında bu paralellik müşahidə olunub. Uzağa getməyək, dünyaşöhrətli rəssamımız Toğrul Nərimanbəyov həm də gözəl tenor səslə oxuyurdu. Buna çoxlu misal çəkmək olar. Bəlkə də sualı belə qoya bilərdiniz ki, bu qabiliyyət sizdə haradandır? Mən 75 yaşımdan rəssamlıqla ciddi məşğul olmağa başladım…

7-ci sinifdə oxuyurduq, coğrafiya müəllimi xəritədə olan yerlərin, ərazilərin, qitələrin, materiklərin hər birinin çəkilməsini bir şagirdə tapşırdı, mənə də Avstraliya qitəsi düşdü. Xəritəni qabağıma qoyub dəqiqliklə çəkdim. Səhərisi günü çəkdiyimi gətirib müəllimə verəndə çaşıb qaldılar, hamı dedi ki, sənin işin deyil…

**- Bu birinci işiniz idi?**

- Bəli. İnsanda belə bir şey var, həvəsləndirmə. Hamı mənim çəkdiyimdən heyrətləndi və bu da mənə əlavə güc, enerji verdi ki, sən bunu bacarırsan. Təxminən bir il sonra Leninin şəklini çəkdim. O qədər oxşatmışdım ki, mənə "sən rəssamsan" dedilər. Yəni rəssamlığa meylim oradan başladı. Sonra da bu işdə "Qobustan" jurnalının rolu oldu. Mən orada çox şəkillərdən yazırdım, amma ən çox rəssamlardan yazırdım, onların da təsiri az olmadı. Sizə bir sirr açım...

**- Buyurun.**

- O vaxtlar əlimə bir dəftərcə alıb rəssamları yamsılayırdım. Bağda oturub orada rəsm çəkən rəssamları çəkirdim. Həm də sevinirdim ki, onlar elə bilirlər mən rəssaman və mənə rəssam kimi baxırlar. Əslində isə elə deyildi. Riqada, Sankt-Peterburqda oldum, orada müəyyən qrafika işləri çəkirdim. Amma 75 yaşımda birdən-birə məndə elə həvəs yarandı və rəssamlığa daha ciddi məşğul olmağa başladım, bu, qələmi mənim əlimdən alır. Bəzən hekayələr, esselər yazıram. Sizə bir söz deyim, bəlkə rəssamlığa yeni qoşulduğuma görədir, rəssamlığın cazibəsi yazmağı üstələyib Bu mənə həm də o qədər rahatlıq, dinclik gətirir ki…

**- Qələmdən soyumusunuz ki?**

- Rəssamlığa daha çox meyl göstərirəm, yazmaqdan bir az soyumuşam. Rəssam, filan, deyiləm, birdən rəssamlar mənə gülə bilər. Çox şeyi bilmirəm, çəkdiklərimdə nələrin çatmadığını bilirəm, yəni bilmədiklərimi də bacarmıram. Hətta bir rəssamın yanında oldum, dedim ki, mənə bunu öyrət. "Mən özüm bunu 20 ilə öyrənmişəm" dedi. Dedim axı mən bir az hazıram, biri var uşağı öyrədəsən, bir də var yetkin bir adamı.

**- Baxıram, daha çox portret janrına üstünlük verirsiniz.**

- Yox, başqa işlərim də var, çox hissəsi evdədir. Son dövrlər on-on beş portretlə məşğul oluram. Bir söz deyim, rəssamların çoxu gördüyünü çəkir, amma bunu lovğalıq kimi qəbul etməyin, məndə isə bir az tematik, ideoloji şeylərdir.

**- Görünür, bu da Sizin nasirliyinizdən, publisistliyinizdən irəli gəlir.**

- Doğru deyirsiniz.

**- Azər müəllim, indiyə kimi çox əsəriniz var. Mənim üçün Siz daha çox "Azərbaycan" jurnalında nəşr olunan və Qarabağ müharibəsi ilə bağlı yazdığınız "Qımır" hekayəsinin müəllifi kimi doğmasınız...**

- Sizin bu xatırlatmanız məni nəyə görə sevindirdi? Bilirsiniz, dünya ədəbiyyatında çox məşhur yazıçılar var ki, onların da həmişə daha çox bir-iki əsəri dillərə düşür və hamı o əsərlərdən danışır. Bu, bilmirəm, oxucu tənbəlliyi, yoxsa nə ilə bağlıdır...

**- Bəlkə burada o əsərlərin daha çox təbliğ edilməsi məsələsi var?**

- Elə onu demək istəyirdim. Deyək ki, Hemunqueyin "Qoca və dəniz" əsərindən hamı danışır. Amma onun ayrı əsərləri də var. Yaxud Folknerin. Yəni bir-iki əsər təbliğ olunur, ağızdan-ağıza keçir, elə bilirlər ki, onların ən gözəl əsəri ancaq odur. Sizin bu sözünüz məni çox tərpətdi. Amma siz hamının haqqında çox danışdığı "Qəmərlidən ötən qatar", "Gül yağışı" əsərlərindən yox, haqqında çox az danışılan, mənim özüm üçün də dəyərli olan "Qımır" hekayəsinin adını çəkdiniz. Mən onu yazanda gözəl ədəbiyyat bilicisi, tərcümə ustası Natiq Səfərov mənə dedi ki, müharibədən o qədər yazılıb ki, burada yenilik etmək olmaz. Deyirdi ki, müharibədən yazanda da yazılmamış şeylərdən yazmaq lazımdır.

**- Azər müəllim, "Yazıçı"nı nəşr edə bilirsinizmi, çətinliyiniz olurmu?**

- Bu mənim ən ağrılı yerimdir. "Yazıçı"nın sayı bəlkə də 100-ü ötüb. Mən bununla bağlı tədbir keçirmək istəyirdim, amma pandemiya araya düşdü. Mən pandemiyadan əvvəl, sağ olsun, şair Ramiz Qusarçaylının köməyilə Dərbəndə getdim və Dərbənd şairləri ilə bağlı yaxşı bir nömrə çap olundu. "Yazıçı" çox böyük maddi sıxıntılarla nəşr olunur. Bəzən bir nömrəni çap etmək üçün onlarla adama ağız açıram, amma bir nömrəni maliyyələşdirmək üçün cəmi bir adamı razı sala bilirəm. Bu o qədər gərəkli nəşrdir ki, bütövlükdə, Türk dünyasnı əhatə edir. "Yazıçı"nı çap etmək üçün maliyyə məsələsində həddindən çox əziyyət çəkirəm. "Yazıçı"nın nəşrinə daha çox, sağ olsun, Anar müəllim köməklik edir.

**- Azər müəllim, hər zaman Yazıçılar Birliyi ətrafında gedən proseslərdən, çaxnaşmalardan kənarda olursunuz, heç bir intriqaya, qruplaşmaya qoşulmursunuz. Son zamanlar ən aktual olan məsələ Birliyin rəhbərliyinə gənclərin gətirilməsi ilə bağlıdır. Necə bilirsiniz, AYB-nin rəhbərliyi, iddia olunduğu kimi, gənclərə verilməlidirmi?**

- Mənim bildiyim bir həqiqət var və öz həqiqətimə, ədalətimə çox sadiqəm. Mən mübarizəmi yazılarımla aparıram… Məni gənclər həmişə Anarın müdafiəçisi kimi qınayırlar. Demirəm gənclər gəlməsin. Gənclik elə bir qüvvədir ki, onun qabağını almaq olmaz. Gənclik gəlsin, gələcək də. Fikir verin, Anar bu saat gənclərdən çox yazıb yaradır. Mənə möcüzə gəlir ki, bu necə yazıb yaradır? Elçin də elədir. Biz yaşıdıq və bunların nə qədər enerjisi var. Gənclər bir qədər təcrübəsiz olurlar. Amma Anarın müdrikliyi, təcrübəsi, idarəetməsi də var. Burada incə bir nüans var. Camaat elə bilir ki, gənclər gəlsə, ədəbiyyatı hardasa inkişaf etdirəcək. Gənclər yazıb yaratsınlar. Yazıçılar Birliyi və Birlik sədri bəyəm yazıçı düzəldir? Gələn adam da özünün tanıdığı 20-30 adama yol açacaq və öz komandasını formalaşdıracaq, yenə də kənarda qalanlar ondan narazı olacaqlar. Heç vaxt deməm ki, Anarı çıxaraq. Çünki o, ədəbiyyatda böyük xidməti olan, çox geniş yaradıcılığa malik insandır.

***İradə SARIYEVA***

№ 92 (4223) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

11 İYUN 2020-ci il



# Amerikalı alimlər ağır xəstələrin müalicəsini tapdı

**Amerikalı alimlər xəstələri şiddətli koronavirus infeksiyasından xilas edə biləcək yeni dərman tapıblar. Milli.Az. xəbər verir ki, "Acalabrutinib" adlı birləşmə əvvəllər qan xəstəliklərinə qarşı istifadə edilib.**

Bu barədə "Science Immunology" jurnalında dərc olunan məqalədə bildirilib. Səkkizi süni ağciyər ventilyasiyasına yerləşdirilmiş olmaqla, 19 koronavirus xəstəsinin müalicəsində tənəffüs çətinliyi risqini azaltmaq və həddindən artıq aktiv immun cavabını azaltmaq üçün "Acalabrutinib" istifadə olunub. Məlum olub ki, bu dərman Bruton tirozin kinaz (BTK) zülalını bloklayır. Bununla birlikdə, təhlükəsiz dozanı təyin etmək üçün preparat zəruri olan kliniki sınaqlardan da keçirilməlidir. BTK iltihablı sitokin siqnal molekullarını ifraz edən immun sisteminin və makrofaqların normal işləməsi üçün lazımdır. Sitokinlər infeksiya daxil olduqda bədənin müdafiəsini tənzimləmək üçün vasitəçi rolunu oynayır.

Ancaq COVID-19-un ağır formasında sitokinlərin həddindən artıq sərbəst buraxılması baş verə bilər ki, bu da ağciyər funksiyasının pozulmasına səbəb olur. Bu hiperflamatuar vəziyyətə sitokin fırtınası deyilir və hazırda xəstəliyin bu mərhələsi üçün sübut edilmiş müalicə strategiyaları yoxdur.



# Uzun müddət tibbi maska taxdıqda nə baş verir?

**"İnsanın dərisi istənilən əlcəkdən daha yaxşı qoruyur. Ona görə bütün günü əlcəkdə olmaq zərərlidir. Açıq havada maska taxıb gəzmək, qaçmaq isə enfizema yarada bilər"**

Milli.Az. medicina.az-a istinadən bildirir ki, bu sözləri Seçenov adına universitetin virusologiya və immunologiya kafedrasının müdiri Vitaliy Zverev deyib. O, koronavirusdan qorunmaq üçün rezin, dəri, tibbi əlcəklərin taxılmasının əllərin dərisi üçün zərərli olduğunu və onun balansını, qoruyucu təbəqəsini zəiflədib, göbələk xəstəliklərinə yol açacağını bildirib. Əllərdə göbələk və travma isə istənilən virusun ordan bədənə keçməsinə zəmin yaradır. Ona görə də ən gözəl müdafiə öz dərinizdir. Sadəcə, onu tez-tez sabunla yuyun və ağzınıza toxundurmayın. "Koronavirusun səthlər, əşyalar üzərində çox qalması, yaşaması mümkün deyil. Çünki o havada, ətraf mühitə azdavamlıdır. Poliomielit tip viruslar daha çox davamlıdır. Ona görə açıq havada maska və əlcək taxılması mənasızdır. Əlcəyin, maskanın üzərinə havada olan toz, allergen, göbələk, başqa bakteriyalar qona bilər, maskadan burnuna keçə bilər, bu isə başqa xəstəliklərə yol açır.

Mən küçədə anaların uşağın ağız burnunu maska ilə tıxadığını görürəm, anaya sual verirəm: kim sonra uşağı ağciyər emfizemasından müalicə edəcək? Küçədə virus uçmur. Sadəcə, ətrafdakı insanlardan 2 metr aralı dayansanız, bəs edər".

# Koronavirus sosial media vərdişlərimizi necə dəyişib?

**Bütün dünya karantin zamanı vərdiş etmədiyimiz bir qaydada yaşamağa çalışsa da, şəxsi seçimlərimiz və vərdişlərimiz yenidən formalaşmağa davam edir.**

Aktiv ictimai həyatımızdakı vərdişlərdən başqa, rəqəmsal dünyadan da gözləntilərimiz tamamilə fərqli bir ölçü qazanıb. Xüsusilə ictimailəşmənin azaldığı bu dövrdə istifadəçilərin sosial media kanallarından gözləntiləri sosiallaşmaqdan dəqiq məlumat əldə etmək istiqamətində dəyişir. "Niyə sosial mediadan istifadə edirik? Son 4 ayda nə dəyişdi? İstifadəçilərin gözləntiləri nədir?" kimi suallara cavab axtaran "AdColony" şirkəti 14-65 yaşarası iştirakçılarla "Karantin zamanında dəyişən sosial media vərdişləri" adlı araşdırma aparıb. "Ted.az" bildirir ki, tədqiqata görə, istifadəçilərin 61%-i sosial media kanallarına daha çox vaxt sərf edir. İstifadəçilərin 51%-i sosial mediadan gündəlik məlumatları öyrənmək üçün yararlandığını bildirir. İstifadəçilərin 51%-i reklamlar sahəsində "LinkedIn"i ən etibarlı sayt hesab edib. İştirakçıların 37%-i gün ərzində "LinkedIn"də 30 dəqiqə zaman keçirdiyini bildirsə də, 30%-i gün ərzində "LinkedIn"də yarım saatdan çox vaxt keçirir.





**Qoç** - Uğurlar əldə etmək üçün ifrat dərəcədə səylərə ehtiyac yoxdur. Praktiki olaraq bütün problemlərin öhdəsindən gələ bilərsiniz. Bəyəndiyiniz, sərfəli və mənfəətli saydığınız ideyaları həyata keçirməyə çalışın.



**Buğa** - Yalnız dəqiq və səlis fəaliyyət planı hazırlayandan sonra aktiv işlərə başlayın. Bütün detalları fikirləşin, zəif və güclü yönləri nəzərə alın. Tələskənliyə yol verməyin. Uğuruna inanın.



**Əkizlər** - Təxribatlara uymayın. Bu gün yaxın ətrafınızdakı insanlar əsəblərinizlə oynayacaqlar. Sakitliyin heç olmasa görüntüsünə nail olmaq böyük səylər və zəhmət tələb edir.



**Xərçəng** - Səbrli və inadkar olun. Sadə olmayan günü itkilərsiz başa vurmağa çalışın. İşlərinizdə irəliləyişlərə nail olmaq istəyirsinizsə, sayıq, sərvaxt davranmaq gərəkdir. Gələcək qələbələrin rəhni indi qoyulur.



**Şir** - Gün uğurlu başlanacaq. Günün ilk yarısında qətiyyətli və iradəli olsanız, ciddi irəliləyişlərə nail ola bilərsiniz. Yaxınlarınızla ünsiyyətləri aktivləşdirin, səmimi və qayğıkeş olun.



**Qız** - Çox əlverişli və uğurlu gündür. Müsbət təmayüllərin təsiri güclü olduğundan ciddi səylərə əl atmadan uğura nail ola bilərsiniz. Yaxın ətrafınızdakı insanlar adi günlərlə müqayisədə sizə yardım istəyi ilə daha çox müraciət edəcəklər.



**Tərəzi** - Pis gün deyil. Hər şey istədiyiniz kimi olmasa da, tövrünüzü pozmayın. Sakit və təmkinli olun. Yaxın ətrafınızdakı insanların bədbinlikdən qurtulmaları üçün əlinizdən gələni edin.



**Əqrəb** - Danışıqlarla müzakirələrdə çox vaxt keçirməyin. Belə müzakirələr xoş olsa da, mənasızdır. Mühüm məsələni sanki təsadüfən yada salın. Faydalı məlumat əldə etməyə çalışın.



**Oxatan** - Yaşam sizə çox asan, asudə gəlməsin. Həyatı daha da çətinləşdirəcək süni problemlər yaratmayın. Ünsiyyətdə xasiyyətinizin ən pis yönlərini sanki bilərəkdən nümayiş etdirməyin.



**Oğlaq** - Məhsuldar gündür. Sizin üçün önəmli, amma mürəkkəb işə başlaya bilərsiniz. Yaşam enerjisi və qüvvələriniz ən çətin işin öhdəsindən gəlməyə imkan verir. Etibarlı dostlar və müttəfiqlər sizi tək qoymayacaqlar.



**Dolça** - Nə istədiyinizi dəqiqləşdirin. Sizi dilə tutsalar da, kənar işlərə razılaşmayın. Yanındakı insanlarla manipulyasiyalar etmək və onlardan öz maraqları üçün faydalanmağa adət edən insanlara sərt cavab verin.



**Balıqlar** - Səmimi, qayğıkeş olmağa çalışın. Belə davranış yaxın ətrafınızdakı insanları laqeyd qoymayacaq. Yeni tanışlıqlar üçün pis zaman deyil. Yaşamınızda sonradan önəmli rol oynayacaq romantik münasibətlər yarana bilər.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Dünyada ən yığcam şırnaqlı printer təqdim edilib

**"Selpic" şirkəti yığcam çap texnikalarının istehsalçısı kimi tanınır. Bu yaxınlarda şirkət tərəfindən təqdim edilmiş miniatür rəngli printerin ölçüləri adi ofis marker ilə eynidir.**

"İctnews.az" bildirir ki, 180 qr. ağırlığında olan "Selpic P1" şırnaqlı printeri loqotip, mətn, şəkil, həmçinin, QR və ştrix kodların rəngli çap edilməsi üçün qurğu kimi təqdim edilir. İstehsalçıların bəyanatına görə, qurğu yalnız kağız üzərinə deyil, həm də metal, parça, plastik və dəri kimi səthlərin üzərinə şəkil çəkə bilir. İstifadəçi çap etmək üçün adi bir markerlə olduğu kimi, cihazı seçilmiş materialın üzərində sürüşdürməlidir.

"Selpic P1" yığcam printerinin avtonom işləmə müddəti 3 saatdır. Maksimim çap təsvir ölçüsü 600 dpi təşkil edir, parametrlərin sazlanması "iOS", "Android" və "Windows" üçün mobil proqram vasitəsilə "Wi-Fi" üzərindən həyata keçirilir.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.